# İSLAMA DƏVƏTDƏ
## MÜHÜM QAYDALAR



قواعد الدعوة

Sahib Əsədov

# İSLAMA DƏVƏTDƏ MÜHÜM QAYDALAR

**Müəllif:**

**Sahib Əsədov**

**Mədinə - 2026**

# Müqəddimə

بسم الله، الحمد لله، والصلاة والسلام على رسول الله وعلى آله وأصحابه ومن والاه، أما بعد:

Möhtərəm müsəlmanlar! Bu kitabçadakı qaydalar İslam dəvətinə aid mühüm qaydaları ehtiva edir. Bu qaydalar dinimizin mübarək mənbələrində əsrlərdir ki, mövcuddur və din xadimlərinin tətbiqatından keçmişdir.

Bu qaydaları toplayarkən İslama dəvət elmi üzrə müxtəlif mənbələrə müraciət edilmişdir. Bəzi qaydaların dəlilləri və izahı sıfırdan toplanılmış və ya mənim tərəfimdən yazılmış, qaydanın izahı sadələşdirilmiş, oxucuların anlayacağı tərzdə onlara təqdim edilmişdir. Bəzi qaydalar isə müxtəlif mənbələrdən nəql edilsə də, çatışmayan tərəfləri kitabçanın üslubuna uyğun olaraq verilmişdir.

Oxuculara təqdim edilən bu risalədəki qaydaları daha müxtəsər bir şəkildə təqdim etməyə səy göstərilmişdir. Mövzular arasındakı ahəngi qorumağa və ixtisas kitablarında olan uzunçuluq və şiddətli ixtisarlara diqqət yetirilərək oxucuya əsas fikrin aydın bir şəkildə çatdırılmasına cəhd edilmişdir.

Qaydaların seçilməsi və kitabçada toplanması zamanı əsli Quran və peyğəmbərin ﷺ sünnəsinə zidd olan qaydaları, İslamın ümumi ali məqsədlərinə deyil, camaat, təriqət və qruplaşmaların şəxsi mənafeyinə xidmət edən batil qaydaları tərk etməyə xüsusi diqqət göstərilmişdir!

Ümid edirəm ki, bu qaydalarla tanışlıq İslam dəvətinə yeni başlamış bir çoxları üçün də həvəsləndirici amil, yol göstərən qaynaq və bir bələdçi olacaqdır. Uca Allahdan istəyirəm ki, bu risaləni faydalı və bərəkətli etsin!

***Yazdı:*** *Beynəlxalq Mədinə İslam universitetinin doktorantura tələbəsi Sahib Əsədov.* *Tarix: 2026.02.02*

# BİRİNCİ QAYDA: İXLAS

İslama dəvət, yalnız dəvətçi ixlaslı olduğu zaman səmərəli olur, ixlasın tərk olunduğu dəvətin isə zərərləri qaçılmazdır. *Gəlin, ixlaslı dəvətin əhəmiyyətinə toxunaq:*

1 - Niyyət əməlin qəbul edilməsinin qaynağıdır.
2 - Əməlin mükafatı niyyətin dərəcəsinə görədir!
3 - Saleh (sağlam) niyyət adəti ibadətə, mübahı itaətə çevirə bilir. (yemək və evlilik misalındakı kimi).
4 - Niyyətdə sadiqlik əməlin tamamlanmasa belə uğurlu olmasına (bəzən xətaya düşsə belə) vəsilə olur.
5 - Niyyətdə sadiqlik Allahın quluna kifayət etməsi və yardım etməsi ilə nəticələnir(1).

Uca Allah Qurani-Kərimdə buyurmuşdur: "**Halbuki onlara, dini yalnız Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu**". (Beyyinə. 5) .

Bir hədisdə Allahın elçisi ﷺ buyurmuşdur: "**Həqiqətən də Allah əməllərdən yalnız ixlaslı olanı və Allahın razılığı istənilərək ediləni qəbul edər**"(2).

Uca Allahın dini İslama dəvətdə niyyət çox mühümdür. Niyyət yalnız uca Allahın razılığı olmalı və insanların razılığı tərk edilməlidir. Peyğəmbərimiz ﷺ buyurmuşdur: "**Əməllər yalnız niyyətlərə görədir**"(3).

Abdullah ibn Məsud (رضي الله عنه) demişdir: "Söz yalnız əməl etdikdə fayda verər, söz və əməl isə yalnız doğru niyyətlə fayda verər. Söz, əməl və niyyət isə sünnəyə müvafiq olduqda fayda verər"(4).

Əməlin qəbul olunmasının iki şərti var. İxlas və Sünnəyə uyğunluq. Qəlbdə olan doğru niyyət, səmimiyyət, Allahın

razılığını qazanmaq şövqünə görə İslama dəvət edən kimsə dəvətində sadiq kimsələrdən olar. Odur ki, İslam dəvətçisi daim niyyətinin doğruluğu, ixlaslı əməl üçün çalışmalıdır. Başqa bir hədisində Peyğəmbərimiz ﷺ buyurmuşdur: **"Allah sizin görkəmlərinizə və malınıza baxmaz, lakin O, sizin qəlblərinizə və əməllərinizə baxar"**(5).

*Allaha dəvətdə niyyətin pozulması, ixlasın zərər görməsi bu mənfi nəticələrə səbəb olur:*

1 – Əməlin qəbul olunmaması.
2 – Dəvətçinin cəmiyyətdə qəbul olunmaması.
3 – Şeytana tabeçiliyin qapılarının davamlı açılmasına, İslam dəvətinin düşmənlərinin İslama tənə etmələrinə şərait yaratması .
4 – Dəvətin əhli olmayan kimsələrin dəvət sıralarına qoşulub dəvətə zərər verməsi.
5 – Qruplaşmaların, nifrətin və qarşılıqlı ittihamların yaranmasına vəsilə olması(6).

## Qeydlər və istinadlar:


1 – Qavaid Mənhəciyyə fid-Dəvəti iləllah. Fəlih əs-Suğeyyir. Səh. 32-41.
2 – Səhih ən-Nəsai. Albani. 3140. Nəsai. "Cihad" kitabı. 3140. Təbərani. (8/140). 7628.
3 – Səhih Müslim. "Zühd və Rəqaiq" kitabı. 4/269. 7475.
4 – əl-Uddə fi Usulil-Fiqh. Qadi Əbu Yəla. 1/8.
5 – Səhih Müslim. "əl-Birr vəs-Sıla" kitabı. 4/1986. 6543.
6 – Qavaid Mənhəciyyə fid-Dəvəti iləllah. Fəlih əs-Suğeyyir. Səh. 47-48.

# İKİNCİ QAYDA: RƏY VƏ HƏDƏFİN AYDIN OLMASI

Hər bir dəvətin qiyməti, hər bir bəyanın ön görünüşü ona çağıran insanın gerçəkləşdirmək istədiyi hədəfə bağlıdır. Həmin hədəfin sərhədləri nə qədər bəlli, üzərində olduğu rəy nə qədər aydın olarsa, gedilən yol da doğru, edilən əməl də ölçülü, səmərəsi də yetkinlik üzərində olar. İslama dəvətin qayəsi isə Allahın razılığı, yer üzündə Allaha həqiqi bəndə olmağı gerçəkləşdirmək və dünyada təbliğ yolu ilə islah meydana gətirməkdir(1). İnsanların Allahı düzgün tanıyıb ona şərik qoşmamaları, yalnız ona ibadət etmələri, İslama zidd, yanlış etiqadların düzəldilməsi, insanların pis əxlaqlarının islahına və nəfslərinin pis xüsusiyyətlərdən təmizlənməsinə çalışmaq, cəmiyyətin islah yollarının insanlara göstərilməsi və s. kimi mühüm məsələlər bu təbliğə daxildir. Bunlar bütün peyğəmbərlərin dəvətindəki əsas istiqamətlər olmuşdur.

Habelə, bir din xadiminin fikirlərinin cəmiyyət üçün bütün mövzularda aydın olması, onun gizli, mübhəm fikirlərinin olmaması onun səmimiyyətinin göstəricisi olmalıdır.

"Elm əhlinə görə, bir din xadiminin fikirləri nə qədər şəffaf və aydın olarsa, o kimsə o qədər xalqına vəfalı və etibarlı görünər. Çünki, belə olduqda onları hər bir vətəndaş asanlıqla tanıya bilir. Sən özünü güzgüdə gördüyün kimi onları da şəffaf fikirləri ilə tanımış olursan. Beləcə, hətta ona müxalif olan da, ondan razı olan da adamı bir fikirlə tanıyır. Odur ki, bir din xadimi üçün aydın və şəffaf fikirli olmaq çox mühümdür. Məchul, naməlum fikirli adamlar, tez-tez mövqe dəyişdirən adamlar həm haqq mizanında, həm də insanların nəzdində etibarlı ola bilməzlər! Necə deyərlər, bir üzdə olmaq mühümdür! El arasında "əqidəli adam" sözü boşuna işlədilməyib!" (2) Beləcə, dəvətdə ikinci mühüm qayda olan "rəy və hədəflərin aydın olmasının əhəmiyyətini" qısa şəkildə izah etdik.

## Qeydlər və istinadlar:

1 – Qavaid Mənhəciyyə fid-Dəvət iləllah. Fəlih əs-Suğeyr. Səh. 49.
2 – Müəllifin sözləri olub sosial şəbəkələrdə yayılmış bir yazıdır. Bu qaydaya aid olduğu üçün burada olduğu kimi nəql edilmişdir.

## ÜÇÜNCÜ QAYDA: DƏVƏT VASİTƏLƏRİ ŞƏRİƏTƏ UYĞUN OLMALIDIR

İslama dəvətdə üçüncü mühüm qayda "dəvət vasitələri" haqqındadır. İslama dəvətdə "üslub" deyildikdə daha çox mənəvi vasitələr, yaxud maddi olmayan metodlar nəzərdə tutulur. Üslubla vasitənin fərqini bu misalla izah etmək olar; məsələn, bəlağətli danışıq, moizə, gözəl söz bir üslubdur, amma bu danışığı çatdıran mikrafon isə bir vasitədir, yəni dəvət vasitəsi...Sosial şəbəkələrin özü də bir vasitədir. Bunun kimi məscid də bir dəvət vasitəsidir. Deməli, dəvətdə "üslub" deyildikdə daha çox mənəvi, "vasitə" deyildikdə isə daha çox maddi vasitələr nəzərdə tutulur(1).

**İslama dəvət üslub (metod) və vasitələrinin şəriətə uyğun olması zəruridir.** Yəni, Allaha dəvətdə haram metod və vasitələrdən istifadə etmək olmaz. Halal metoda misal olaraq imamın məsciddə xütbə verməsini və bu xütbəni insanların anlayacağı tərzdə, gözəl misallarla və dəlillərlə çatdırmasını göstərmək olar. Haram olan metoda isə misal çəkmək olar ki, biri içki olan məclisə gedir, özü içməsə də deyir ki, mən yeni üsulla dəvət edirəm; haram məclisdə otursam da, haram etmirəm, amma haram edənləri bu əməldən çəkindirmək istəyirəm, beləcə Allaha dəvət edirəm. Biz dərhal ona deyəcəyik ki, bu əməl şəriətə ziddir. Üslub və vasitələr şəriətə uyğun olmalıdır. Yaxud da kimsə deyə bilər ki, "mən dini videolar hazırlayıram, lakin bu videoları daha gözəl etmək üçün ora cazibədar qadınları cəlb edirəm". (bəzi əcnəbi dəvətçilərin etdiyi kimi). Yenə ona deyəcəyik ki, bu metodlar haramdır və İslam dəvətini öz mahiyyətindən çıxardığı üçün icazəli deyil.

Deməli, İslama dəvətdə haram metod və vasitələrdən istifadə etmək icazəli deyil. Misallardan sonra bəzi məqamları da qeyd edək. İslam alimləri məşhur bir qayda deyirlər: الغاية لا تبرر الوسيلة "Yəni məqsəd (haram) vasitəni icazəli etmir"(2). Az öncə verdiyimiz misallardakı kimi sən "İslama dəvət məqsədinin

aliliyini" hüccət və bəhanə edib haram metodlardan istifadə edə bilməzsən.

Onu da bilmək lazımdır ki, İslama dəvət vasitələrinin əsli (təməli) tövqifidir(3). Yəni, sağlam dini dəlillərə əsaslanmalıdır və kimsə özbaşına, dəlil olmadan, yaxud sağlam dəlillərə əsaslandırmadan yeni metod və vasitələrlə dəvət edə bilməz. Əksinə, yeni metodlar şəriətə ərz edilir və icazəsini bu dəlillərə əsasən alır. Məsələn, podkast videoları yeni üslub olsa da, bunun şəriətdə əsli var. Dialoq, qarşılıqlı müzakirə, polemika dinimizdə icazəlidir, Peyğəmbər ﷺ də insanlarla müzakirələr edib(4) deyə bu üslubu alimlərdən kiminsə inkar etdiyini eşitməmişik. Hətta alimlərdən də bu üslubu xoş qarşılayıb istifadə edənlər var. Amma kimsə gəlib desə ki, "gəlin tövhidə dəvət etmək üçün mitinq edək", deyəcəyik ki, bu doğru üslub və vasitə deyil. Tövhidə (Allahın vəhdaniyyətinə) dəvət etmək istəyirsənsə, gedib sosial şəbəkələrdə, yaxud birbaşa insanlarla ünsiyyətdə olub dəvət et, amma belə yanlış yollarla bu işi görmə. Əslində mövzu geniş olsa da bu qədəri ilə kifayətlənirik.

## Qeydlər və istinadlar:

1 – Daha ətraflı: əl-Mucizu fid-Dəvət. Hamid Huceyli. səh. 117.

2 – əl-Məxrəcu minəl-Fitnə. Şeyx Muqbil ibn Hədi. Səh. 162.

3 – əl-Hucəc əl-Qaviyyə alə ənnə Vasəiləd-Dəvət Tovqifiyyə. Şeyx Abdus-Sələm ibn Bərcis.

4 – Peyğəmbərin ﷺ insanlarla dialoq qurub müzakirələr etməsinə onun mübarək sünnəsindən çoxsaylı dəlillər var. Məçhur "Cəbrayıl" hədisində vəhy mələyi olan Cəbrayıl sual verir, Peyğəmbərimiz ﷺ isə cavab verirdi. Çöl ərəbləri onun yanına gələr və onunla müzakirə və dialoq üslublu söhbətlər edərdilər. Yəhudilərin də peyğəmbərlə dialoqu, sual-cavabı olmuşdur. Həmçinin o ﷺ öz yaxın səhabələri ilə də məsləhət-məşvərət edər, dialoq qurar, müzakirələr edərdi. Bu mövzularda yüzlərlə hədislər var.

# DÖRDÜNCÜ QAYDA: ELM, İBADƏT VƏ ƏMƏL ARASINDA TARAZLIĞI QORUMAQ

İslama dəvətdə dördüncü qayda: Elm, ibadət və əməl arasında tarazlığın qorunmasıdır. Həqiqi bir dəvətçi öz dəvətini elmi yaymaq, elmə və ibadətə əməl etmək üzrə həyata keçirən kimsədir. Ona görə də dəvətçi haqqında deyilən bu söz dəvətin haqqında da keçərlidir. İslamda əməlin sağlam (salamat) olması üçün elm bir şərtdir. Əməl isə elmin səmərəsidir. Səmərəsini verməyən hər bir elm isə yiyəsi üçün bir ziyan və ayıbdır. Elm üzərində olmayan hər bir əməl isə fəsada və şərə xidmət edir(1).

Bu qaydaya daxil olan məsələlərdən biri də insanın dəvətlə məşğul olub əməl etməyi tərk etməməsidir. Çünki, İslama dəvətin məsuliyyəti insanı dini vəzifələrini həyata keçirməkdən, ibadətləri, dini ayinləri yerinə yetirməkdən yayındırmalı deyil. İslama dəvət edən hər bir dəvətçi uca Allahın digər bəndələri kimi dini vəzifələrini yerinə yetirməli, üstəlik başqalarından daha çox nümunəvi olmağa çalışmalıdır. Bu isə elmi, əməli, ibadəti cəm etdikdə baş verir.

Bir dəvətçinin elmi (التأصيل العلمي) təməlli, köklü surətdə öyrənməsi, bütün İslami elmlərdən pay sahibi olması, ona bu şərəfli yolda dəstək olan çox mühüm amildir. Əgər bir dəvətçi təməlli, köklü şəkildə elm öyrənməzsə, elmdə və dəvətdə tələsərsə, şübhəsiz ki bu, İslam dəvətinə zərər verən amillərdən birinə çevrilər. Elm əhli buyurur ki, cahil bir dəvətçi ilk öncə öz nəfsinə zülm edir, səhv öyrətdiyi kəslərin də səhvlərinin məsuliyyətini daşıyır. Bir çox cəmiyyətlərdə çoxsaylı dəvətlərin və dəvətçilərin uğursuzluğa düçar olmalarının və ya zəifləmələrinin başlıca səbəbi dəvətin elm üzərində qurulmaması və elmin əhli olmayan kəslərin liderliyə can atmaları olmuşdur.

Şəkk yoxdur ki, insanın bildiyini danışması, həddini və yerini bilərək danışması gözəl haldır. Sələflərin dediyi kimi: "Allah öz yerini bilən kimsəyə rəhm etsin"(2). Elmi olub onun zəkatını

çıxarmamaq, öyrətməmək də bu babda olan boşluqlardan, geniş olan məsələlərdən biridir.

• Dəvət yolu elmlə başlayarsa, qul bilər ki:
- Elm imanın bələdçisidir.
- Elm əməlin başıdır.
- Elm dəvət yolunda insanı fitnə və xətalardan qoruyacaq (Allahın müvəffəqiyyətindən sonra) əsas amildir.
- Elmə əməl etməmək dəvətin səmərəsini azaldır və ya heçə endirir(3).

Bu qayda haqqında qısa olaraq bu qədəri ilə kifayətlənirik!

## Qeydlər və istinadlar:

1 – Qavaid Mənhəciyyə fid-Dəvəti iləllah. Ustaz Dr. Fəlih əs-Suğeyr. Səh. 90.
2 – Bu söz Ömər ibn Əbdüləziz (رحمه الله) və bəzilərinə nisbət edilir. "Bu ifadə hədis deyil, mənası isə doğrudur". Bax: Fətəva Nurun Aləd-Dərb. İbn Useymin. 2/569.
3 – Əvvəlki mənbə. 104-105.

# BEŞİNCİ QAYDA: DƏVƏT OLUNAN KƏSLƏRİN HALINI BİLMƏK

İslama dəvətdə beşinci mühüm qayda dəvət olunanların halını bilməkdir. Qeyd olunan qayda İslama dəvətdə çox mühüm qaydalardan biridir. Bu qaydanın hədəfi dəvətçinin dəvətə başlamadan öncə İslam dəvətini yönəltdiyi, dini çatdırdığı şəxslərin durumunu, halını bilməsi, onları mümkün olduqca yaxından tanımasıdır.

Allahın elçisi Muhəmməd ﷺ Muaz ibn Cəbəli (رضي الله عنه) Yəmənə göndərəndə onun dəvət edəcəyi toplumun kimlər olduğunu xəbər verərək demişdi: "Sən Kitab əhlindən olan bir toplumun yanına gedəcəksən... (1)". Sonra isə onları necə dəvət etməsi gərəkdiyini öyrətmişdi.

Uca Allah Qurani-Kərimdə buyurur :
"Biz hər bir peyğəmbəri ancaq öz xalqının dilində danışan göndərdik ki, haqqı onlara bəyan etsin. Allah istədiyini haqq yoldan sapdırır, istədiyini də doğru yola yönəldir. O, Qüdrətlidir, Hikmət sahibidir". (İbrahim. 4).

Bu qaydanın gərəkli etdiyi bəzi məsələlər bunlardır:

▪ Ümumi bir şəkildə də olsa dəvət olunanların dinlərini, inanclarını bilmək.

▪ Dəvət olunanların dilini və ləhcəsini bilmək.

▪ Dəvət olunanları ehtiva edən ictimai, iqtisadi, siyasi durumu, onlara təsir gücünü bilmək, dəvət olunanların dəvəti hansı səviyyədə qəbul etmələrini, onların dəvətçilərə olan münasibətini bilmək.

▪ Dəvət olunanlara uyğun üslub və vasitələri bilmək.

▪ İnsanları dəvət etmək üçün düzgün, uyğun müqəddimələr və başlanğıclar etmək.

Saleh sələflərimiz bu məsələlərə çox əhəmiyyət vermişlər. Bu mövzuda mühüm məsələlərdən biri də insanların anladığı tərzdə danışmaqdır.

Əli ibn Əbi Talib (رضي الله عنه) demişdir: "İnsanların anlayacaqları tərzdə danışın! Siz heç Allah və Rəsulunun ﷺ inkar edilməsini istəyərsinizmi?" (2).

Abdullah İbn Məsud (رضي الله عنه) demişdir: "Sən bir toplumun yanında onların ağlının anlamadığı şeyləri danışsan, bu, onlardan bəziləri üçün yalnız fitnə olar"(3).

## Qeydlər və istinadlar


1 – Səhih əl-Buxari. 1496.
2 – Fəthul-Bari. 1/125. İbn Həcər.
3 – Səhih Müslim. Müqəddimə. 14.

# ALTINCI QAYDA: ZƏRƏRİ DƏF ETMƏYİ XEYRİ CƏLB ETMƏKDƏN ÖNƏ ÇƏKMƏK

İslama dəvətdə altıncı qayda belədir: zərəri dəf etmək xeyri cəlb etməkdən önə çəkilməlidir! Bu qaydanın məqsədi odur ki, İslama dəvət yolunda olan zərərlərin (məfsədələrin) qarşısı alınmalıdır və bu zərərləri dəf etmək xeyirləri (məsləhələri) cəlb etməkdən önə çəkilməlidir. Yəni, Allaha dəvətdə birinci xeyri əldə etmək deyil, zərərləri dəf etmək lazımdır ki, bu doğrudan da çox mühüm məsələdir. Ortada zərərlər ola-ola onları dəf etməyib ancaq xeyirləri cəlb etməyi düşünmək doğru deyil.

Ona görə də bu haqda olan fiqhi qaydalardan biri belədir: "Əgər bir dəvətçi xeyri cəlb etməklə zərəri dəf etmək arasında seçim etmək qarşısında qalarsa, o, zərəri dəf etməyi seçməli, xeyri cəlb etməyi isə zərərin dəf olunmasından sonraya saxlamalıdır. Çox zaman bu belə olur. Çünki şəriətin qadağan olunmuş şeylərə olan diqqəti əmr olunmuş şeylərə olan diqqətindən daha çoxdur"(1).

Dəvətçilərin bu qaydanı tətbiq etməsilə bağlı diqqət yetirmələri gərəkən mühüm məsələlərdən bəziləri bunlardır:

- Zərərlər və xeyirlər arasında tarazlığa fikir vermək.
- Hansısa məsləhətin (xeyrin) gerçəkləşməsi əgər məfsədəyə (zərərə) səbəb olacaqsa, onu gerçəkləşdirməyə canfəşanlıq etməmək.
- Zərəri dəf etmək və xeyri cəlb etmək adı altında fitnələrin qapılarını açmaqdan, xaosa səbəb olmaqdan, cəmiyyəti (zərərli nəticələrə doğru) təhrik etməkdən uzaq durmaq.
- Xeyir əlçatandır, zərər isə çətin əldə olunur. Bunun mənası odur ki, dəvətçilər üçün xeyirləri reallaşdırmaq əlçatandır, asandır. Zərərlərə gəldikdə isə, əgər bir yerdə məfsədələr (dəvətə vurulan zərərlər) yayılarsa, onun müalicəsi çətinləşər. Ona görə də bu zərərləri uzaqlaşdırmaq vacibdir.

• Cəmiyyətin həssas problemləri ilə davranmaqda hikmətli olmağın vacibliyi və bunların hamısını şəriətin mizanı ilə ölçmək. Habelə, problemli işlər çıxdığı zaman etibarlı elm əhlinə müraciət etmək. Uca Allahın buyurduğu kimi: "Bilmədiyiniz zaman zikr əhlindən soruşun". (ən-Nəhl. 43).

*Bu qaydanın bəzi təfsilatları haqqında qeydlər də oxucular üçün faydalı ola bilər.*

## Münkəri (pisliyi) inkar etməyin dərəcələri:

"Münkər" deyildikdə, şəriətin çirkin hesab etdiyi və sağlam nəfslərin sevmədiyi bütün söz və fellər qəsd edilir. İstəsəniz bunu daha qısa bir şəkildə "Şəriətə zidd bir əməl" və ya "Şəriətdə pis sayılan əməl" olaraq da yadda saxlaya bilərsiniz. Pis əməli inkar etməyin dörd dərəcəsi var:

1 – Pis əməlin aradan qalxması və onun yerinə xeyrin gəlməsi.
2 – Pis əməlin bütünlüklə olmasa da azalmasının baş verməsi.
3 – Pis əməli inkar etdikdə özü kimi bir pis əməlin yenidən peyda olması.
4 – Pis əməli inkar etdikdə o pis əməldən daha şərli bir pisliyin peyda olması.

Birinci iki dərəcədə pis əməli inkar etmək icazəlidir. Üçüncüsü ictihadi məsələdir. Dördüncüsü isə haramdır.

▪ Əgər yaxşılıq əmr edilib pislik qadağan edildikdə bu əməlin xeyri fəsadından çox olacaqsa, bu zaman bu əməli etmək icazəldir.

▪ Əgər yaxşılığı əmr edilib pislik qadağan edildikdə bu əməlin nəticəsində fəsad yaranar və bu fəsad xeyirdən çox olarsa, o zaman bunu etmək haramdır. Çünki, şəriətə görə (usulu fiqh qaydalarına əsasən) fəsadları uzaqlaşdırmaq xeyirləri cəlb

etməkdən daha önəmlidir.

▪ Əgər yaxşılığın əmr edilib pisliyin qadağan edildiyi zaman bu əməlin nəticəsində xeyirlə zərər eyniləşərsə, (bu ictihadi məsələdir, təfsilata gedildikdə istisna hallarda icazəli də ola bilər, yəni elə hallar yarana bilər ki, o hallarda icazəli olsun) bu zaman yaxşılığı əmr edib pisliyi qadağan etmək olmaz. Çünki, bu halda da şəriət qaydalarına əsasən insanlardan zərərləri uzaqlaşdırmaq lazımdır (2).

▪ Yaxşılığın əmr edilib pisliyin qadağan edildiyi zaman nəticədə fəsadlar qarşılıqlı artarsa, bu vəziyyətdə iki halda birinin baş verməsi labüddür; bu zaman:

Ya bu şərlərin içindən fəsadı daha az olanı seçilir. Bu da aşağıda qeyd edilən fiqhi qaydalara əsasən tətbiq olunur:

▪ Daha şiddətli zərər daha yüngül bir zərərlə aradan qaldırılır.
▪ Əgər iki fəsaddan birini seçməkdən başqa yol qalmazsa, bu zaman daha yüngül fəsadı olan seçilməlidir.
▪ İki şərdən ən yüngül olanı seçilir (3).

Ya da bu fiqhi qaydalar tətbiq edilir:
▪ Zərər aradan qaldırılmalıdır.
▪ Zərər özü mislində bir zərər ilə aradan qaldırıla bilməz.
▪ Zərər mümkün olduqca dəf edilməlidir(4).

## Qeydlər və istinadlar:

1 – Dirasət Mənhəciyyə fid-Dəvət vəl-Hisbə. səh. 150-151.
2 - Əmri bil-Məruf vən-nəhyi anil-Munkər, səh 21-22, şeyxulislam İbn Teymiyyə "əl-İstiqamə". 2-218; Muhəmməd Səlimin təhqiqi ilə; Həmçinin; Şeyxülislamın "Məcmuul-Fətəva"sı, 28-130. İbn Qasimin tərtibatı ilə.
3 – Bu qaydaların hər biri çıxış yolu olmadıqda, məcburi seçim

olduqda tətbiq edilir.

4 – "İləmul-Muvaqqiin an Rabbil-aləmin". İbn Qeyyim. Bax: əsərdəki eyni adlı mövzuya. Həmçinin, Muhəmməd Nasir Abdur-Rahmənin "Haqiqatu Əmri bil-Məruf vən-Nəhyi anil-Munkər və Ərkənuhu və Məcəllətuhu" səh, 87-92. Kunuzu İşbiliyyə" nəşr evi. 1997).

# YEDDİNCİ QAYDA: DƏVƏTƏ DAHA MÜHÜM OLAN MÖVZU İLƏ BAŞLAMAQ

"Bu qaydadakı məqsəd odur ki, İslama dəvət edən kimsə öz dəvətinə dinin ən mühüm məsələlərinə dəvət etməklə başlamalı, sonra isə növbəti mühüm mövzulara keçməlidir. Başqa bir ibarə ilə desək, dəvətçi öz dəvətinə İslamın böyük təməl və əsaslarına dəvətlə başlamalı, sonra isə digər mövzulara keçməlidir(1)".

Bir İslam təbliğatçısı hansı mövzunu hansından önə çəkəcəyini, hansı mövzunu təxirə salacağını, hansı mövzulara daha böyük əhəmiyyət və üstünlük verəcəyini bilməzsə, o öz dəvətində müvəffəq olmaz və uğur qazanmaz.

Bu baxımdan da elm əhli İslam təbliğatçılarına فقه الأولويات "fiqhul-övləviyyət" (Önə çəkilməsi gərəkən məsələlərin fiqhi) mövzusunu yaxşı öyrənməyi tövsiyə edirlər. "Fiqhul-övləviyyət" məsələsini qısa şəkildə izah edəsi olsaq, bu, bir alimin və ya dəvətçinin dəvət planında dəvət olunan kimsələr üçün daha mühüm olan, daha çox ehtiyac olan, daha faydalı olan mövzuları tərtib etməsi, bu tərtib və ardıcıllıq üzərində İslam dəvətini aparmasıdır. Məsələn; insanların çoxlu etiqadi problemləri, inancla bağlı savadsızlıqları olan ölkələrdə din təbliğatçılarının ancaq quru moizələr edib bütün peyğəmbərlərin dəvəti olan tövhid dəvətini tərk etmələri düzgün deyil. Hətta dindar ölkələrdə belə daim düzgün etiqad və əqidəni öyrətmək İslam təbliğatçılarının ən mühüm mövzsusu olmalıdır.

Allah elçisinin ﷺ dəvətinə fikir versək, o öz dəvətini ən mühüm əqidə mövzuları ilə başlamışdı. Onun ən mühüm mövzusu isə uca Allahın vəhdaniyyətinə, tövhidə dəvət olmuşdur.

Uca Allah Qurani-Kərimdə buyurmuşdur: **"Bil ki, Allahdan başqa ibadətə layiq heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların**

**bağışlanmasını dilə. Allah gəzib dolaşdığınız yeri də, gecələyəcəyiniz məskəni də bilir"**. (Muhəmməd. 19).

Sonra o böyük Peyğəmbər ﷺ dinin digər daha mühüm və təlimə ehtiyac olan mövzularına toxunmuşdu. O ,ﷺ insanların İslam əxlaqı üzərində tərbiyə olunması məsələsinə, əhkam məsələlərinə də biganə qalmamışdır. Lakin bu mövzuların təbliğində zaman və məkan amilinə, mühümlük dərəcəsinə fikir vermişdir. Odur ki, hətta vəhy belə Məkkədə daha çox etiqadi mövzularda idisə, Mədinədə əhkam mövzularında idi(2). Peyğəmbərimizin ﷺ Muaz ibn Cəbəli Yəmənə göndərərkən ona öncə "kəlmeyi tövhidə" dəvəti, sonra isə İslamın digər rükunlarına dəvəti tövsiyə etməsi, "əgər bunu qəbul etsələr" sözünü deyib sonra İslamın digər əmrlərini sıra ilə öyrətməyi tövsiyə etməsi (3) də bu qaydanın dəlillərindəndir.

Bu mövzuya daha yaxın qayda da növbəti qaydadır. O da dini tədricən öyrətmək və tələskənlik etməməkdir.

## Qeydlər və istinadlar:


1 – Dirasət fid-Dəvət vəl-Hisbə. Əbdür-Rəhim əl-Muğazzəvi. Səh. 147.
2 – Movsuatul-Aqidə. 1/36. (Əqidə ensiklopeyası).
3 – Bax: Səhih əl-Buxari. "Zəkat" kitabı. 2/147. No: 1458. Səhih Müslimdə isə "İman" kitabında: 1/50. No: 19.

# SƏKKİZİNCİ QAYDA: DİNİ TƏDRİCƏN ÖYRƏTMƏK VƏ NƏTİCƏNİ GÖRMƏYƏ TƏLƏSMƏMƏK

Bu qaydadakı məqsəd odur ki, İslam dəvətçisi insanlara şəfqətli davranaraq dəvətin pillələrini addım-addım qalxsın, onlara – xüsusən də qeyri-müsəlman olub yeni İslama gələnlərə, yaxud da yenicə müsəlman olub imanın qəlbində güclənmədiyi kimsələrə və ya qeyri İslami ölkələrdə yaşayıb İslamı həqiqəti ilə bilməyənlərə və ya hətta İslami cəmiyyətlərdə olsa belə buna bənzər hallarda olanlara – dinin əmrlərini birdən-birə çoxaldaraq çətinləşdirməsin, birdən-birə onlara gücləri çatmayacaq və bacarıqları fövqündə olan şeyləri yükləməsin(1).

Həmçinin burada qəsd olunan məna "daha mühüm olan şeylərlə dəvətə başlamaq və daha üstün olan şeyləri bilməkdir, hansı ki, buna əməl edildiyi zaman dəvət olunanın qəbul etməsinə daha yaxın və dəvətin hədəflərinin yerinə yetməsinə daha çox ümid edilər. Necə ki, görülən işlərdə tələsmək və ya nəticəni dərhal görmək istəmək dəvətdə edilən xətalardan biridir. Bu isə dəvətdə tədriclə hərəkət etmək hikmətinə qarşı bir addımdır.

Bu qaydaya ən aydın dəlillərdən biri öncəki qaydada qeyd etdiyimiz Muaz ibn Cəbəlin Yəmənə göndərilməsi hədisidir(2). Bu hədisdə çoxlu faydalar, əzəmətli qaydalar və xüsusi nadir ibrətlər var. Bu hədis haqqında düşünən kimsə Allaha dəvətdə tədrici üslubun, dəvət olunanların halını bilməyin və onların hislərinin və ağıllarının təsirləndiyi şeylərə diqqət yetirməyin əhəmiyyətini görə bilər (3).

Buxari öz "Səhih"ində Aişə (رضي الله عنهما) anamızın belə dediyini rəvayət edir: "İlk nazil olan müfəssəldən bir surə idi ki, orada cənnət və cəhənnəmin xatırlanması var idi. O zaman ki, insanlar İslama tərəf gəldilər onda halal və haram haqqında ayələr nazil oldu. Əgər ilk nazil olan ayə "şərab içməyin" şəklində olsaydı, insanlar deyərdilər ki, "biz şərab içməyi heç zaman tərk etmərik!

Yaxud da ilk nazil olan ayə "zina etməyin" şəklində ayə olsaydı, insanlar deyərdilər ki, "biz heç zaman zinanı tərk etmərik!" (4). Yenə Buxarinin "Səhih"ində Təlha ibn Ubeydullahın rəvayət etdiyi hədisdə Nəcd əhlindən olan çox sadə bir kişinin peyğəmbərimizlə ﷺ maraqlı bir dialoqu keçir. Həmin kişi peyğəmbərin ﷺ yanına gəlib İslam haqqında soruşduqda peyğəmbər ona yalnız namaz, oruc və zəkat haqqında tədrici bir izah verir, oda bunlara əməl edəcəyini, heç nəyi artırmayayayacağını, nə də azaltmayacağını bildirir, peyğəmbər isə deyir: "Əgər düz deyirsə, o nicat tapacaq"(5).

## Qeydlər və istinadlar:

1 – Dirasət mənhəciyyə fid-Dəvət vəl-Hisbə. Prof. Əbdür-Rəhim əl-Müğəzzəvi. səh. 148.
2 – Bax: Səhih əl-Buxari. "Zəkat" kitabı. 2/147. No: 1458. Səhih Müslimdə isə "İman" kitabında: 1/50. No: 19.
3 – Mənhəcud-Dəvət iləllah Alə Dov`i Vasiyyətin-Nəbi ﷺ li-Məb`usihi iləl-Yəmən Muaz ibn Cəbəl رضي الله عنه Prof. Əbdür-Rəhim əl-Müğəzzəvi. səh. 127.
4 – Səhih əl-Buxari. "Fədailul-Quran" kitabı. 2/228. No: 4993.
5 – Səhih əl-Buxari. 1/18. No: 46. "İman" kitabı. Səhih Müslimdə isə "İman" kitabında varid olmuşdur: 1/40. No: 11.

# DOQQUZUNCU QAYDA: DƏVƏTİN ÜMUMİ MƏSLƏHƏTİNİ XÜSUSİ MƏSLƏHƏTİNDƏN ÖNƏ ÇƏKMƏK

Dəvət elmi üzrə kitablarda olan bu qaydanı biz "Dəvətin ümumi məsləhətləri dəvətin xüsusi məsləhətlərindən önə çəkilməlidir" kimi tərcümə edə bilərik. Həmçinin bu qaydanı "Şəxsi məsləhətləri ümmətin məsləhətlərindən önə çəkmək olmaz" kimi də anlamaq mümkündür. Bu qaydanın məqsədi odur ki, İslamın böyük və əzəmətli məsləhətləri kiçik və ya əhəmiyyəti az olan məsləhətlərdən önə çəkilir. Bu qayda elə anlaşılmalı deyil ki, kiçik məsləhətlər qəbul edilmir və ya ehmal edilərək diqqət göstərilmir. Əksinə, buradakı məqsəd odur ki, bəzən ümmətin ehtiyacı ilə bağlı olan daha böyük və daha əzəmətli məsləhətlər ortaya çıxdığı zaman bəzi kiçik məsləhətlər sonraya saxlanılır.

Hər bir əsrdə İslama dəvət metodikasının yollarında böyük və kiçik məsləhətlər yenilənir. Elə bu qaydanın götürülməsi və etibar qazanmasının əhəmiyyəti də buradan ortaya çıxmışdır.

Bu qayda üzərindəki mühüm bir qeyd də odur ki, dəvətdə önəmli olan fərdlərə yox, ümumi insanlara, bütöv cəmiyyətə faydalı, xeyirli olan məsləhətlərə tabe olmaq gərəklidir. Dəvətdə fərdlərin və ya hansısa çevrələrin və ya camaatların öz şəxsi mənfəətlərini İslamın ayrılmaz bir hissəsi kimi diktə etməsi icazəli deyil. Çünki, bu özünə dəvət edilən (İslam) əmanəti uca Allahın müsəlmanların öhdəsinə verdiyi əmanətlər içində ən möhkəm əmanətlərdən biridir. Uca Allah buyurmuşdur: "**Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar onu daşımaqdan qorxub imtina etdilər. İnsan onu boynuna götürdü. Doğrudan da, o, zalım və cahildir"**. (Əhzab. 72).

# ONUNCU QAYDA: DƏVƏTİ HİSSLƏR VƏ EMOSİYALAR ÜZƏRİNDƏ DEYİL, ELM VƏ BƏSİRƏT ÜZƏRİNDƏ QURMAQ!

Bu qaydanın mənası odur ki, İslam dəvətçisinin İslama dəvəti elm və bəsirət üzərində olmalı, bu istiqamət onun dəvətində üstünlük təşkil etməlidir. Bu, o mənaya gəlmir ki, İslama dəvətdə hisslərə və emosiyalara ehtiyac yoxdur. Əksinə, uca Allah bəşər övladının nəfsinə iki mənəvi güc vermişdir. Ağıl gücü və emosional güc. Odur ki, hər iki gücü İslam dəvətçisi öz xitabında düzgün yönləndirməlidir. Hisslər, emosiyalar düzgün istiqamət verilmədikdə, ağılın hökmünə tabe olmadıqda zərər verir. Buradakı təhlükə sırf bu məsələdir. Yoxsa ki bir İslam dəvətçisinin gözəl bir şəkildə hisslərə, vicdanlara xitab etməsi normal bir haldır. Lakin unutmaq olmaz ki, bu dəvət xitabının əsli elm və bəsirətdir. Çünki hisslərə uymaq dinimizdə təriflənməmişdir. Elm və bəsirət ilə hərəkət etmək isə dinimizdə təriflənmişdir. Uca Allah Qurani-Kərimdə buyurur: "**De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar bəsirət üzərində (mötəbər dəlillərə, elmə əsasən) insanları Allaha dəvət edirik!**" (Yusif. 108).

Çox zaman cəmiyyətdəki böyük fitnələr ifrat emosional və hisslərini cilovlaya bilməyən, ağlıyla hərəkət edə bilməyən şəxslər tərəfindən cərəyan edir.

Bu qaydanın ən mühüm cəhəti ağıl və hisslər arasında tarazlığı qorumaqdır. Allahın elçisi ﷺ bizim üçün bu mövzuda da ən gözəl örnəkdir; məşhur və uzun bir hədisdə zina etmək istəyən gəncin Allahın elçisi ﷺ ilə maraqlı bir dialoqu olur(1). Allahın elçisi ﷺ həm onun hisslərinə, həm də ağlına xitab edir. Peyğəmbərə zina etmək istədiyini bildirən gəncə ətrafdakılar hislərinə qapılıb qınaqla yanaşdıqları halda, peyğəmbər onları sakitləşdirib sonra bu fikri ifadə edən gənci islah edir. Ona əqli suallar verib başa salır ki, sən öz yaxınların ilə zina edilməsini istəmədiyin kimi insanlar

da bunu öz yaxınlarına rəva görməzlər. Sonra isə ona dua edir və o gəncin qəlbi rahatlayır, zina etmək ona çirkin görünür.

Başqa bir hədisdə isə peyğəmbər bazar tərəfdən keçərkən yolda ölmüş bir keçinin leşini gördüyü zaman onu səhabələrinə göstərib "bunu kim alar?" dediyi zaman heç kimin almaq istəmədiyini gördükdə, dünyanın məsələni həmin heyvanın halı ilə müqayisə edir, bu misalla dünyanın əsl həqiqətini onlara bildirmiş olur(2). Beləcə emosional durumla əqli misalı bir arada cəm etmiş olur. Səhih hədislərdən birində də əsir düşmüş qadınların içində bir qadın həyəcan içində öz övladını tapıb bağrına basıb süd verərkən bu mənzərəni uzaqdan seyr edən peyğəmbər öz səhabələrinə deyir: "Sizcə bu qadın öz övladını oda atarmı?" dedikdə səhabələr bunun mümkünsüz olduğunu bildirir, sonra isə peyğəmbər ﷺ belə buyurur: "Allah öz qullarına qarşı bu qadının körpəsinə rəhm etməsindən daha Rəhimlidir"(3). Beləcə, emosional durum ilə əqli misalı eyni zamanda cəm edir.

• *Bu qaydaya riayət etməməyin təhlükələri:*

1 – Parlaq şüarlara və hisslərə aldanaraq doğru yoldan azmaq..
2 – İnsanın nümunəvi, rəbbani din xadimi və ya dindar görkəmini itirməsi.
3 – İslam dəvətinin zəifləməsi və fəsadın yayılmasına şərait yaranması.
4 – Düşmənlərin hislərini cilovlaya bilməyən dəvətçidən istifadə etməsi.
5 – Hisslərinə və emosiyalarına qapılan dəvətçinin özünə və digər müsəlmanlara zərər verməsi.
6 – Ağıl çərçivəsində olmayan emosional çıxışlara üstünlük vermək.

## Qeydlər və istinadlar:

1 – İmam Əhmədin "Müsnəd" əsəri. 5/256-257.

2 – Hədis tam şəkildə Səhih Müslimdə keçir: 4/2272. No: 7418. "Zühd" kitabı. "Dünya möminin zindanıdır" fəsli.
3 – Səhih əl-Buxari. "Tövbə" kitabı. "Allahın rəhmətinin genişliyi" fəsli. 8/9. No: 5999. Müslim də eyni adlı kitab və fəsildə qeyd etmişdir: 4/2109. No: 2754.

# ON BİRİNCİ QAYDA: TƏRĞİB VƏ TƏRHİB ARASINDA TARAZLIĞI QORUMAQ

Tərğib (rəğbətləndirmə) və tərhib (qorxutma) üslubu İslama dəvətdə istifadə edilən ən əzəmətli üslublardandır. Hansı ki, bu üslub Qurani-Kərim və hədislərdə demək olar ki, ən çox istifadə edilən üslubdur. Dəvət qaydalarından danışarkən bu mövzuya toxunmadan keçmək elmi insafdan və obyektivlikdən olmazdı.

**"Tərğib":** İnsanları Allahın verəcəyi savaba və cənnətə rəğbətləndirməkdir.

**"Tərhib":** İnsanları Allahın əzabıyla və cəhənnəmlə qorxutmaqdır"(1).

Başqa bir ibarə ilə izah etsək, **tərğib:** şəriətinin əmr və qadağalarına riaəyət edən kəsləri xeyirə rəğbətləndirmə, xeyir əhlini gözləyən mükafatı xatırlatmadır. Tərhib isə: günahkarların Allahın şiddətli əzabına düçar olacaqları ilə bağlı xatırlatmadır. Bu qaydanı "Qorxu və ümid arasında tarazlığı qorumaq" kimi də anlaya bilərik.

Bu qayda ilə tanış olarkən bilmək lazımdır ki, dində əsl olan qayda tərğibdir.

• **Sual verilsə ki**, tərğib və tərhib üslubunu günümüzdə necə tətbiq edə bilərik? Hər iki üslub barədə bir misal çəkmək olarmı? Cavab olaraq elm əhlindən eşitdiyimiz bu misalları çəkmək mümkündür;

**Tərğib üslubuna aid misal:** Əgər bir nəfərə desən ki, "ey insan Allahdan qorx, tövbə et, dinə-imana gəl! – o da bunun cavabında desə ki: "Ay qardaş, günahlarım çoxdur, uzun bir zaman mən belə halda yaşamışam, bu uzun ömürdən sonra tövbənin bir faydası olmaz", o zaman bu ümidsizlik içində olan insanın "ümidə" və "rəğbətləndirməyə" (tərğib metoduna) ehtiyacının olduğu bilinər. Bu məqamda ona "tərhib" (Allahın əzabı ilə qorxutma) üslubunu tətbiq etsən, həmin insanı həlak etmiş olarsan. Lakin, ona ümid verməklə "Allah Bağışlayan və Mərhəmətlidir, əgər tövbə etsən, Allah sənin tövbəni qəbul edər"

de, Allahın qullarını tövbə və bağışlanmağa dəvət etdiyi bəzi (ona faydalı olacaq) dəlilləri de(2).

**Tərhib üslubuna aid misal**: Əgər bir qism insanlara desən ki, "ey insan, bu nə günahlardır belə edirsiniz? Niyə bu cür pis əməllər edirsiniz?" – o da bunun cavabında desə ki, bizə çətinləşdirmə, Rəbbimiz Bağışlayan və Mərhəmətlidir! Onun Bağışlaması çox genişdir! Onun Rəhməti hər şeyi ehtiva etmişdir!" – belə bir insan günahlara davam etdiyi halda rəhmət haqqında danışırsa, bu o deməkdir ki, o insanda günahları etməkdə cürət var və onun qorxuya ehtiyacı var. Çünki belə birisi üçün tərğib (rəğbətləndirmə) üslubu faydalı deyil. Ona demək lazımdır ki, Allah Rəhimli olduğu kimi Onun əzabı da şiddətlidir. Deməli, tərğib və tərhib üslubları şəxsdən şəxsə, haldan hala dəyişə bilir.

Bu mövzudan danışarkən elə bilinməsin ki, dində sərtlik və mülayimlik mövzusu eynidir. Şəkk yoxdur ki, dinə dəvətdə əsas olan mülayimlikdir. Bu haqda çoxsaylı dəlillər var. Lakin biz burada iki dəvət üslubunun (metodunun) hər birinin öz yerinə uyğun şəkildə istifadə edilməsinin əhəmiyyətini vurğulamaq istəyirik. Yumşaqlığın, mülayimliyin dinə dəvətdə təməl prinsip olmasına gəldikdə isə bu haqda uca Allah Qurani-Kərimdə buyurmuşdur: "İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et". (Nəhl. 125). Peyğəmbərimiz ﷺ isə buyurmuşdur: **"O şeydə ki, mülayimlik olar o şeyi gözəlləşdirər. O şeydən ki, mülayimlik çıxar, o şeyi çirkinləşdirər**"(3). Bilmək lazımdır ki, bu haqda dəlillər çoxdur. Bu qədərilə kifayətlənirik.

## Qeydlər və istinadlar:

1 – Qavaid Mənhəciyyə fid-Dəvəti iləllah. Səh. 239.
2 – Tərğib və Tərhib haqqında sual cavab. Şeyx dr. İbrahim Ruheyli. Videodan alıntı. keçidin başlığı: أيهما يُقدّم في الدعوة الترغيب أم

الترهيب؟

3 – Səhih əl-Cami. Şeyx Albani. 5654. Aişə və Ənəs ibn Malikin rəvayəti رضي الله عنهما.

# ON İKİNCİ QAYDA: ŞƏRİƏTİN MƏQSƏDİNƏ MÜXALİF OLAN HƏR BİR DƏVƏT MƏQSƏDİNİN BATİL OLMASI

**Bu qaydadakı məqsəd budur:** "Dəvətin məqsədləri şəriətin məqsədləri olmalı və ona müxalif olmalı deyil. Şəriətin gətirdiyi məqsədlərə müxalif olan hər bir məqsəd batildir və sahibindən qəbul olunmur".

Bu qayda çox mühüm bir məsələni təməlləndirir. O da dəvətçilərin əməllərinin məzmununun şəriətə uyğunluğu və dəvətin şəriətə müxalif metodlara, camaatlara və cərəyanlara görə qurulmamasıdır.

Bu qaydanı qüvvətləndirən başqa mühüm məsələ isə dəvətin şəriət ehtivasından çıxardılmamasıdır. Yaxud da bəzilərinin dediyi kimi "jelatin kimi məfhumdur" və ya "ordan-burdan toplanmadır", yaxud "dəvət metod və vasitələrdən ibarətdir", yaxud "dəvət şüar və bayraqlar qaldırmaqdan ibarətdir". Dəvət haqqında bu cür məfhumlar və mənalar səsləndirənlər, şəriətin məqsədlərinə müxalif olan dəvət qapıları açırlar. Bu isə batilin özüdür. Bu cür əməllər edənlərdən dəlil tələb olunur, gətirə bilmədiyi üçün də əməli rədd olunur.

Uca Allah buyurmuşdur: "Bu belədir. Çünki Allah haqdır. Kafirlərin Ondan başqa çağırdıqları (ibadət etdikləri) isə batil bütlərdir. Həqiqətən Allah Ən Ucadır, Ən Böyükdür". (Loğman. 30).

Aişədən (رضي الله عنها) rəvayət olunur ki, Allahın elçisi ﷺ buyurmuşdur: "Kim bizim bu işimizə uyğun olmayan bir iş ortaya çıxararsa, o əməl rədd olunar"(1).

Alimlər bu qaydaya bir çox əsərlərində toxunmuşlar. Bundan birini də imam Şatibi belə ifadə etmişdir: "Hər kim ki, şəriətin

öhdəçiliklərindən hər hansısa birini şəriətdə gəlməyən bir formada etmək istəyərsə, o kimsə şəriətə müxalif olmuşdur. Hər kim də şəriətə müxalif olarsa, onun əməli bu müxalifliyi ilə batil olar"(2).

Bu batil məqsədlərə musiqili dini videolar hazırlamaq, kişilərin naməhrəm qadınları başına toplayıb dinə dəvət etməsi, dindarların dəvət adı altında siyasi şüarlarla təhrik edilmələri, "din" adı altında mitinqlərin təşkili, naməhrəm kişilərin naməhrəm qadınlara "dəvət" adı altında şəxsidə yazışmaları, kəndlərdə "ələm" gəzdirib insanlardan pul toplamaq, müqəddəs yerlər adı altında insanları pirlərə ziyarətə getməyə təşviq etmək, Quran ayələrindən Allahın muradı olmayan, təfsirlərdə olmayan, heç bir alimin söyləmədiyi "elmi mənalar" çıxardıb dinə dəvət üçün istifadə etmək və s. onlarla misalları çəkmək olar.

## Qeydlər və istinadlar:

1 – Səhih əl-Buxari. 2/267; "Sülh" kitabı. no: 2697.
2 – "əl-Muvafaqat" əsəri. Şatibi. 2/333.

# ON ÜÇÜNCÜ QAYDA: ÖZÜYLƏ FƏSAD GƏTİRƏN VƏ YA XEYRİ ARADAN QALDIRAN HƏR BİR DƏVƏT YOLUNUN QADAĞAN OLMASI

**Bu qaydadakı məqsəd**: Dəvət yollarının xeyir və doğru yol üzərində davamlılığı, müntəzəmliyi, məsələlərdə qarışıqlığa yol verilməməsi; Hər bir dəvət yolunun qayələrini, çatdırılma yollarını, insanlara nə qədər faydalı olmasını, nə qədər zərərdən uzaq olmasını bilmək və araşdırmaq labüddür(1).

Fəsada aparan yollar isə nə olursa olsun, qadağandır və fəsad əməlindən çəkindirilir. İstər bu fəsad etiqadlarda, istər qanunlarda, istər əxlaqlarda, istər metodlarda, istər bədənlərdə, istər də ölkələrdə olsun. Uca Allah Qurani-Kərimdə buyurur: **"Yer üzü islah olduqdan sonra orada fəsad törətməyin".** (Əraf. 56). Həmçinin buyurmuşdur: **"Onlara: "Yer üzündə fəsad törətməyin!" – deyildiyi zaman: "Biz ki, ancaq islah edənlərik!" deyirlər. Əslində, elə onların özləri fəsad törədənlərdir, lakin bunu hiss etmirlər".** (əl-Bəqərə. 11-12).

Bu Qurani-Kərim ayəsi fəsad törədənlərin xüsusi bir növünün xarakterini izah edir. Necə ki, şeyx Əbdürrəhman əs-Sədi bu ayənin təfsirində onları vəsf edərək demişdir: "Onlar yer üzündə fəsad törətmək əməliylə bu fəsadın fəsad olmayıb guya islah olduğunu göstərmək əməlini – həqiqətlərin mahiyyətini dəyişdirərək batilə əməl etmək və onu doğru hesab etməklə – bir arada cəm etmişlər"(2).

Şəriətin məqsədi insanlar üçün xeyrin, islahın və faydanın gerçəkləşməsidir. Bundan başqa şəriətə və doğru dəvət metoduna müxalif olan bütün yollar qadağandır. Elə bu səbəbdən də elm əhli belə buyurmuşlar: "Şəriətin məqsədinə müxalif olmaq haramdır"(3).

## Qeydlər və istinadlar:

1 – Dirasət Mənhəciyyə fid-Dəvət vəl-Hisbə. səh. 142.
2 – Teysirul-Kərimur-Rahmən. Əbdürrəhman əs-Sədi. Səh. 43.
3 – əl-Mustasfə. 258. Dirasət Mənhəciyyə fid-Dəvət vəl-Hisbə. səh. 143.

## ON DÖRDÜNCÜ QAYDA: TAM (ÜMUMİ) HİSSƏNİ İTİRMƏKDƏNSƏ, BƏZİ HİSSƏLƏRİ QORUMAQ ÜSTÜNDÜR.

Öncə qeyd edək ki, bu qayda "Üsulu Fiqh" elmində olan məşhur qaydalardandır. Dəvət elmi üzrə mütəxəssislər bu qaydanın dəvət elmində də keçərli olduğunu bildirərək belə izahlar vermişlər:

1 - Bu qaydadan olan məqsəd: "Dəvət yolunda bəzi şeyləri qorumaq onu bütünlüklə itirməkdən daha üstündür".

2 – "İnsanları dəvətdə (şəriət çərçivəsində) bəzi uğurları əldə etmək onu tam şəkildə itirməkdən daha yaxşıdır"(1).

Həmçinin deyiblər ki: "Bu qayda İslam dəvətçiləri üçün mühüm bir məsələni bəyan edir. O da: "Mümkün olmadığı təqdirdə dəvətçi dəvət sahəsində etmək istədiyi hər şeyi həyata keçirməyə çalışmamalıdır. Bunun bir çox səbəbi var: Məsələn; hidayət etmək (doğru yola yönəltmək) dəvətçinin əlində deyil. Bu məsələ Allahın öhdəçiliyindədir. Eyni zamanda da dəvət olunanlara mənfi və müsbət təsir edən hallar var(2).

Müasir dövrümüzdə diqqət etsək görərik ki, insanların əhatəsində onları haqdan uzaqlaşdıran tələlər, şəhvətlər, şübhələr, fikirlər və cərəyanlar çoxdur. Bunların hamısı insanları hədəf alır, onlara təsir etməyə və onları pozmağa səy göstərir, onları haqq dəvəti haqqında şəkk-şübhəyə salır və ondan uzaqlaşdırmağa çalışır. Ona görə də İslam dəvətçiləri bu məsələləri başa düşməli və bu qaydanı nəzərə almalıdırlar. Onlar bacardıqları qədər insanlarda (dəvət olunanlarda) olan bəzi xeyirli tərəfləri qorumağa çalışmalı, bu xeyirli tərəfləri ehmal və tərk etməməlidirlər.

Uca Allahın buyurduğu kimi: "Allahdan bacardığınız qədər qorxun"(Təğabun. 16).

Allahın elçisi ﷺ buyurmuşdur: **"Sizə bir şeyi əmr etdiyim zaman bacardığınız qədər onu yerinə yetirin"**(3).

Gəlin, bu mövzuya dair bir misal verək; bir insan cəmiyyətə çox faydalı insandır. Lakin onun pis xüsusiyyətləri var. Həmin insan islah olarsa, onun xeyri öz ailəsindən tutmuş, bütün cəmiyyətə kimi təsir edəcəkdir. Elə isə bir İslam dəvətçisi, cəmiyyəti islah etmək istəyən biri onun pis xüsusiyyətlərini bacardığı qədər islah edərək onun yaxşı cəhətlərinə fokuslanmalıdır.

Nəzərə almaq lazımdır ki, bu gün insanları pozan, haqq yoldan azdıran amillər çoxdur. Ona görə də bir dəvətçi insanlara qarşı daha çox diqqətli, rəhimli və şəfqətli olmağa çalışmalıdır. Necə ki, bu bir seçim məsələsidir. Möminlərin anası Aişə (رضي الله عنها) Allahın elçisi Muhəmməd ﷺ haqqında belə deyir: **"Allahın elçisi ﷺ iki şey arasında seçim etməli olduğu zaman – günah olmadığı müddətcə - iki şeydən ən asan olanını seçərdi. Əgər günah olardısa, ondan ən uzaq olan kimsə o olardı"**(4).

Bu hədis bəyan edir ki, asanlığı önə çəkmək və günahdan çəkinmək (məfsədəni tərk etmək), ümumi olan daha üstün bir mənfəəti (məsləhəti) tərk etmək hesabına belə olsa yerinə yetirilməlidir. Fiqhdən buna misal; **cihad** babında müsəlmanların təhlükəsizliyini təmin etmək (ümumi məsləhət) üçün qənimətlərin bir qismini (xüsusi məsləhəti) tərk etmək, onu götürməmək icazəlidir. **Müamilələr** babında isə: zəruri olaraq qorunması gərəkən şeylərdən (zəruriyyət) canı və malı qorumaq ikinci dərəcəli qorunması gərəkən şeylərədən (kəmaliyyət) önə çəkilir(5). Məşhur bir qaydada deyildiyi kimi "Bütövlüklə əldə oluna bilməyən bir şeyin, əldə edilə bilən bir qismi tərk edilmir"(6). Xülasə, bu haqda misallar çoxdur. Bununla kifayətlənirik.

## Qeydlər və istinadlar:

1 – Dirasət Mənhəciyyə fid-Dəvət vəl-Hisbə. Prof. Əbdürrəhim əl-Muğazzəvi. səh. 144.

2 – Öncəki mənbə. səh. 144.

3 – Səhih əl-Buxari. 7288; Səhih Müslim. 1337.

4 – Səhih əl-Buxari. 6126; Səhih Müslim. 2327.

5 – əl-Fikrul Məqasidi lil-İzz ibn Əbdüssələm min kitəbihi: Qavaidul-Əhkəm fi Məsalihil-Ənəm.

6 – Fusul fis-Səqafəti val-Ədəb. 91.

## ON BEŞİNCİ QAYDA: DƏVƏT ZAMANI ZƏRURƏTLƏRİ EHTİYAC MİQDARINDA İSTİFADƏ ETMƏK.

**Bu qaydadakı məqsəd:** Dəvət fəslində ehtiyac duyulan zərurətlərin (1) geniş istifadəyə yol vermədən, necə gəldi götürülmədən, lazımi miqdarına baxılaraq, ehtiyaca görə təyin edilməsi, yaxud da şəriətin əsaslarını və baxış aspektlərini pozmadan əlaqələndirilməsi və nəzarət edilməsi labüddür. Bu qaydada Qurani-Kərimin zəruri, gözlənilməz, ani vəziyyətlər üçün etdiyi istisnadan istifadə edilmişdir. Qeyd edəcəyimiz ayədə bəzi haramlar sadalandıqdan sonra belə deyilir: "...Məcburiyiyət qarşısında etdiyiniz şeylər istisna olmaqla..."(Ənam. 119).

Bu qaydanın tətbiqi zamanı diqqətə alınması gərəkən məsələlərdən biri də odur ki, məcburiyyət halında qadağan olunmuş şeylərdən təhlükəni aradan qaldıracaq miqdarda istifadə edilməlidir. Bu qaydanı sərbəst şəkildə (necə gəldi) götürmək olmaz. Təhlükə aradan qalxdıqdan sonra qadağan hökmü də geri qayıdır(2).

Buna misal olaraq, İslama dəvət olunan birinin düşmənlər tərəfindən sayılan sözləri deməyə məcbur edilməsini gətirə bilərik. Bu zaman dəvət olunan kimsə əzab və həlakdan qurtulmaq üçün məcburiyyətdən dolayı küfr sözünü deməli olur. Belə bir vəziyyətdə şəriət ona düşmənlərin istədiyi sözü deməyə icazə verir. Lakin o şərtlə ki, bu sözü deyənin qəlbi tövhid (Allahın vəhdaniyyəti) və iman ilə dolu olmalı və o kimsə bir daha bu sözə qayıtmamalıdır.

Uca Allah buyurmuşdur: "Qəlbi imanla sabit qaldığı halda haqqı danmağa məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün şiddətli əzab vardır" (Nəhl. 16).

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) bu ayənin təfsirində deyir:

"Bu, dili ilə - istəmədən – küfrə düşən, əziyyət və döyülmə yoluyla müşriklərə müvafiq olmağa məcbur edilən kimsə haqqında bir istisnadır. Halbuki bu halda onun qəlbi diliylə dediyini inkar etmiş, tam yəqinliklə Allaha və elçisinə iman üzərində olmuşdur... Buna görə də fəqihlər ittifaq etmişlər ki, küfr etməyə məcbur edilənin bunu etməsi və canını qoruması onun üçün icazəlidir"(3).

Bütün bunlarla yanaşı bu qaydadan çox geniş istifadə etmək və dəvətçinin dəvət zamanı üzləşdiyi zərurətləri hər bir halda girilən bir qapı kimi istifadə etməsi olmaz. Əksinə, vacib olan odur ki, zərurət ehtiyac miqdarında istifadə edilsin və bu işi yalnız hər şeyin miqdarını və ölçüsünü bilən rəbbani alimlər görsünlər, ehtiyacı olanlara yol göstərsinlər. İnsanlar problem və müsibətlərə düçar olmasınlar deyə, dəvətdə zərurətin meyarını təyin etmək işini bunu bacarmayan bir kimsənin öhdəsinə verməməyə və "zərurət" bəhanəsilə dəvət yoluna bu yoldan olmayan şeylərin daxil edilməməsinə diqqət yetirmək lazımdır.

## Qeydlər və istisnalar:

1 – Burada **"zərurət"** sözü Azərbaycan dilində işlədilən müstəqil söz olaraq deyil, İslam şəriətdə istifadə olunan xüsusi bir termin kimi başa düşülməlidir. Ən yaxın mənada oxucu zərurət sözünü bu izahdan sonra təxminən belə başa düşə bilər: "*Həyati təhlükə zamanı edilən əməllər, hansı ki normalda şəriət bunları etməyə icazə vermir*". Gəlin, İslam alimlərinin "zərurət" sözünü bir termin olaraq izahına da toxunaq ki, bu sözün mənası daha aydın olsun:

İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: *"Zərurət o şeydir ki, o olmadan (onu ehtiyac miqdarında etməsən) ölüm, xəstəlik kimi şeylər və ya dinin vacibatlarını yerinə yetirməkdə acizlik baş verər"*(Məcmuul-Fətəva. 31/226). Şatibi (Allah ona rəhmət etsin) isə "zərurət" sözünə daha ümumi bir tərif verərək belə demişdir: *"Zərurətin mənası odur ki, dinin və dünyanın məshələtlərinin həyata keçməsi üçün bunu etmək qaçılmazdır. O baxımdan ki, əgər bu (bunu etmək) əldən verilərsə, dünyanın məsləhətləri*

*düzgün istiqamət üzərində olmaz, əksinə, fəsad, xaos və həyat itkisi üzərində olar. Axirətdə isə qurtuluşu və neməti itirmək, açıq-aşkar ziyana düşməkdir".* (əl-Muvafaqat. Səh. 2/10). İmam Şafi də "əl-Umm" kitabında "həyati təhlükə" mənasını ifadə edən bir neçə uzun cümlə ilə "zərurət" sözünün mənasını izah edir ki bu, daha çox birinci qeyd edilən izaha yaxındır. (Bax: əl-Umm. 2/252).

2 – əl-Mədxəl əl-Fiqhi əl-Am. Mustafa əz-Zərqa. 2/1003.

3 – Təfsirul-Quranil-Azim. İbn Kəsir. Səh. 1077-1078.

# ON ALTINCI QAYDA: DƏVƏT ZAMANI MƏŞƏQQƏTİN ASANLAŞMANI LAZIM ETMƏSİ

**Bu qaydadakı məqsəd odur ki**: Dəvətçiyə və dəvət olunan kimsəyə üz verən çətinliklər, yorğunluqlar və ya qorxular dəvət mövzusunda onlar üçün asanlıq, problemi, sıxıntını aradan qaldırmaq, işləri gücü çatan nisbətdə etmək qapısını açır. Lakin bu, şəriət dəlilləri (naslar) və öhdəlikləri ilə ziddiyyət təşkil etməmək şərtilə baş verməlidir.

Fəqihlər bu mühüm qaydanı bu sözlərilə təkid etmişlər: "Məşəqqət asanlaşdırmanı gərəkli edir. Çünki problemin aradan qaldırılması əmri dini dəlillərlə (naslarla) sabitdir. Lakin asanlaşdırmanı cəlb etmək şəriət dəlilləri (naslar) ilə ziddiyyət təşkil etməmək şərtilə həyata keçirilməlidir. Əgər bu əməl şəriət dəlilləri (naslar) ilə ziddiyyət təşkil edərsə, (bu asanlaşdırma tərk edilərək) başqa yola baxılar. *"Asanlığı cəlb edən məşəqqət"* deyildiyi zaman, elə bir məşəqqət nəzərdə tutulur ki, o baş verdiyi zaman şəriət öhdəlikləri şəxsin üzərindən düşür. Amma şəriət öhdəliklərinin şəxsin üzərindən düşmədiyi məşəqqətə gəldikdə isə - məsələn, cihad, qisas və digər ilahi cəzaların tətbiqi (hüdud), zinakarın daşqalaq edilməsi (rəcm), amansız üsyankarların (bağilərin), cinayətkarların və fəsad əhlinin öldürülməsi kimi hallar asanlaşdırmanı cəlb etmə və ya yüngülləşdirmə kimi bir duruma aid edilməz(1)".

• Bu qayda iki mühüm mövzunu ehtiva edir:

**1 – Dəvətçilər** və onların bəzi zaman və məkanlarda əməllərinə görə qarşılaşdıqları bəzi çətinliklər və məşəqqətlər; Burada qəsd olunan, bundan dolayı üz verən məşəqqətlərin dəvətçilərə zərər verməsidir. Bu məqamda həmin dəvətçilərə asanlaşdırmaq və gücləri çatmayan şeyləri onlara yükləməmək tələb olunur.

**2 – Dəvət olunanlar**; Ola bilsin ki, onlar İslam şəriətinə uyğun

yaşadıqları, şəri əhkamları həyata keçirdikləri və Allahın dinini öz nəfslərinə və cəmiyyətə tətbiq etdikləri üçün bəzi çətinlik və məşəqqətlərlə üzləşsinlər. Bu məqamda da həmin şəxslər üçün asanlaşdırma və yüngülləşdirməyə gərək duyulur(2). Ələlxüsus da xüsusi bir siyasi və ictimai şəraitlərdə yaşayan cəmiyyətlər bura daxildir. Bundan daha xüsusi olanı isə, qeyri-İslami cəmiyyətlərdir. Buna Qərbdə yaşayıb İslami azlıq təşkil edən toplumları misal çəkmək olar. Asanlıq İslam dəvətinin təbiətindəndir. İnsanlara zərər verən məşəqqətlər zamanı bu asanlığın ilahi bir hədəfi və hikməti vardır.

Uca Allah buyurmuşdur: "**Allah sizin üçün asanlıq istəyir, Allah sizin üçün çətinlik istəmir**". (əl-Bəqərə. 185).

Həmçinin buyurmuşdur: "**Allah sizin üçün şəriət hökmlərini yüngülləşdirmək istəyir, çünki insan zəif yaradılmışdır**". (ən-Nisa. 28).

Habelə buyurmuşdur: "**Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də, yalnız öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yüklə yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə daşıtdırma! Bizi əfv et, bizi bağışla, bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafir qövmə qalib gəlməkdə bizə yardım et!"** (əl-Bəqərə. 286).

Bu ayə bəyan edir ki, "Allahın dini asanlıqdır və orada məşəqqət yoxdur. Uca Allah Öz qullarından onların gücü çatmayan işləri tələb etmir (3).

Ona görə də uca Allah Qurani-Kərimdə buyurmuşdur: **"...bu dində də sizin üçün heç bir çətinlik yaratmadı".** (əl-Həcc. 78).

Peyğəmbər ﷺ buyurmuşdur: "**Asanlaşdırın, çətinləşdirməyin, müjdələyin, nifrət etdirməyin**(4)".

Habelə buyurmuşdur: "**Siz asanlaşdıranlar olaraq göndərildiniz, çətinləşdirənlər olaraq göndərilmədiniz**" (5). Bu hədisi peyğəmbərimiz ﷺ bir bədəvi ərəbin məscidə gəlib su başına çıxdığı zaman deyir. Çünki səhabələr onun bu əməlinə qəzəblənmişdilər. Amma Peyğəmbər ﷺ o şəxsin cahil və savadsız biri olmasını rəhmət və asanlaşdırma ilə qarşılamışdı.

Başqa bir hədisdə isə ﷺ belə buyurmuşdur: "**Həqiqətən də bu din asanlıqdır. Bu dində şiddətli olan elə bir kimsə yoxdur ki, o (şiddəti) ona qalib gəlməsin. Elə isə doğru olanla əməl edin, (tam şəkildə əməl edə bilmədikdə) doğruya yaxın əməl edin və (bunu etdiyiniz təqdirdə savab əldə edəcəyiniz haqda) sizə müjdələr olsun. (İşlərinizi uğurla görmək üçün) günün əvvəli, axşam və bir qədər də günün sonu (uyğun vaxtlarda) çalışın**". (6). Bu hədisdə də Peyğəmbər ﷺ işlərdə uğur qazanmaq üçün günün boş və münasib vaxtlarını seçməyi, asanlaşdırma metodunu, insanın bacardığı qədər çalışmasını tövsiyə etmişdir.

Şəriətdə olan səfərdə namazları qısaltmaq, namazları cəm etmək, xəstələrin oruc tutmaması, su olmadıqda təyəmmüm etmək, və s. onlarla hökmlərin məqsədi asanlaşdırma və problemi aradan qaldırma işində yardım etmək üçündür.

Bu qayda elə anlaşılmalı deyil ki, İslam dəvətçisi başına bir sıxıntı, çətinlik üz verən kimi İslamı təbliğ etməyi tərk etsin və yaxud da bu yolda zəifləsin. Yaxud da dində asanlıq deyildiyi zaman dini təhrif etmək cəhdləri anlaşılmalı deyil. Bu, qətiyyən yolverilməzdir. Bu qayda sadəcə müsəlmanın çətinlik, məşəqqət zamanı daha diqqətli olmasına yardımçı olmağı hədəfləyir.

## Qeydlər və İstinadlar:


1 – Şərhu Qavaid əl-Fiqhiyyə. Mustafa Zərqa. Səh. 157.
2 – Dirasət Mənhəciyyə fid-Dəvət vəl-Hisbə. Əbdürrəhim əl-Muğazzəvi. səh. 150.
3 – ət-Təfsir əl-Müyəssər. Bəzi alimlərin topladığı müxtəsər təfsir. səh. 49.
4 - Səhih Müslim. 1732. Səhih Əbu Davud. 4835.
5 - Səhih əl-Buxari. 220.
6 - Səhih əl-Buxari. 39. Səhih ən-Nəsai. 5049.

## ON YEDDİNCİ QAYDA: DƏVƏT MƏQAMININ FƏTVA MƏQAMI KİMİ OLMAMASI (1)

**Bu qaydadakı məqsəd odur ki:** Hikmətsiz davranıb İslama dəvət məqamını fətva məqamı ilə eyniləşdirmək kimi bir yanlışa yol verilməsin. Çünki məşhur bir qaydada deyildiyi kimi: "Hər bir məqamın özünə aid sözü var"(2). Bu da hikmətdəndir. Hikmət isə bir şeyi öz doğru yerinə qoymaqdır (3). Dəvət, elmlə yanaşı yumşaqlıq və hikmət tələb edirsə, fətva daha böyük elm tələb edir. Dəvət edən kimsələr nəfslərinə uyub fətva məqamına girməkdən həzər etməlidirlər. Çünki, fətvanın elmini, ədəb və qaydalarını bilən öz əhli vardır.

• **Dəvət və fətva məqamı arasındakı bəzi fərqlər:**

**1 – Ümumi fərqlər:** Dəvət məqamı insanları xeyrə yönəltmək və Allaha dəvət etməkdir (bu məqam ümumi və genişdir), fətva məqamı isə müəyyən bir məsələnin şəri hökmü haqqında xəbər verməkdir (bu, xüsusi bir məqamdır ki, xüsusi elm və dəqiq hazırlığa gərək duyulur). Dəvətçi bütünlüklə dinə dəvət edir, müfti isə müəyyən bir fiqhi məsələyə dinin hökmünü bildirir. Müfti olmaq üçün gərəkən şərtlər dəvətçi olmaq üçün gərəkən şərtlərlə eyni deyil.

**2 – Mövzu və genişlik baxımından fərqlər:** Dəvət məqamı əqidə, ədəb-əxlaq, müamilə, fiqh, ibadət və s. dinin bütün aspektlərini əhatə edir. Fətva məqamı isə bir qədər dar çərçivəni ehtiva edib şəri əhkamlarla əlaqədardır. Buna baxmayaraq, fətva verənin (müftinin) elmi səviyyəsi əksər hallarda dəvətçinin elmi səviyyəsindən daha üstün olur və olmalıdır. Çünki hökm verməyi gərəkli edən elm daha ağır, daha məsuliyyətlidir. Dəvətçi daha çox xatırladır, müfti isə xüsusi hallarla bağlı şəriət dəlillərinə əsasən hökm verir.

**3 – Hədəf baxımından fərqlər:** Dəvətin hədəfi insanların

Allahın yoluna (hidayətə) yönəlməsi və islahı üçün çalışmaqdır. Fətvanın hədəfi isə fətva istəyən şəxs üçün şəri hökmü bəyan etməkdir.

**4** – Hər bir müfti (fətva əhli) dəvətçi hesab olunur. Amma hər dəvətçi fətva əhli deyil. Hətta dəvətçilərin bir çoxu fətva əhli deyillər.

• **Bu qaydaya aid misal:** "Fəqihlər fiqhi mövzulardan danışarkən bəzən ehtiyac olduqda hansısa əməlin icazəli olmasını bəyan etmək məqsədilə bəzi ikinci dərəcəli (füru) mövzuları qeyd edirlər. Bu, sıravi müsəlmanlara fətva vermək və ya həmin məsələni öyrətmək üçün edilir. Bu ona görə edilmir ki, onlar şəriətdən olan nəyisə tərk edir və insanlara mübah (4) bir əməli əmr edirlər. Bu mövzuda çoxlu xətalar baş vermişdir. Bəzən görürsən ki, insanlardan kimsə təlim, moizə (vəz) və fətva məqamını ayırd etmirlər(5)".

"Elmin əhli olan kimsələr söhbətləri təlim, moizə, fətva olması etibarilə, yerinə görə fərqləndirə bilirlər. Ola bilsin ki, onlar təlim məqamında dedikləri sözləri moizə məqamında deməsinlər. Habelə, ola bilsin ki, onlar fətva məqamında dedikləri sözləri təlim məqamında deməsinlər. Deməli, elmi əldə etmək yalnız onun məsələlərini başa düşməklə deyil. Əksinə, bunun arxasında bundan daha uca və əzəmətli olan şey var. O da elmi çatdırmağın metodunu bilməkdir. O kəs ki, elmi yaraşan bir şəkildə çatdırır, bu faydalı olur və faydalandırır. Lakin o kimsə ki bu yol üzərində elmi çatdırmır, ola bilsin ki, o kimsə insanlara zərər versin"(6).

• Elmsizcə fətva verməyin ən çox görülən fəsadlarından:
1 – Allahın genişləndirdiyi məsələləri darlaşdırmaq, çətinləşdirmək.
2 – Konkret hökmlər olan məsələləri isə "dində inkişaf və yenilənmə" adı altında təhrif etmək və qüvvədən salmağa çalışmaq.

## Qeydlər və istinadlar:

1 – İlmud-Dəvət iləllah – dirasə tasiliyyə. Muhəmməd əş-Şəhrani. səh. 423.

2 – Bəzi mənbələrdə bu ifadənin ilk dəfə Abbasi şairi Bəşşər ibn Bərd tərəfindən deyildiyi nəql edilir. Lakin bu sözü cahiliyyə dövrü ərəb şairi Tarfə ibnil-Abda nisbət edənlər də var. Həmçinin, məşhur səhabə Əbu Dərdanın (Allah ondan razı olsun) da bu sözü işlətməsini Səxavi qeyd etmişdir.

3 – Vasəilud-Dəvət. Əbdür-Rəhim əl-Muğazzəvi. səh. 31.

4 – Mübah əməlin edilməsi və tərk edilməsi haqda müsəlmana seçim verilmişdir. Yəni, şəriət bu əməli etməyi tələb etmir, nə də qadağan etmir. (Rovdatun-Nazir. 1/94; Şərhul-Kovkəbul-Munir. 1/428. əl-İhkəm fi Usulil-Əhkəm. Əmədi. 1/123).

5 – Bax: Şeyx Saleh əl-Useyminin dərsi. Videonun keçidi: https://youtu.be/qJP5Y1iUBMU?si=_yQlDwHM45R5cgTN 1:15-dən 1:43-ə kimi.

6 – Bax: Şeyx Saleh əl-Useyminin dərsi. Videonun keçidi: https://youtu.be/qJP5Y1iUBMU?si=_yQlDwHM45R5cgTN 2:27-dən 4:22-yə kimi.

## ON SƏKKİZİNCİ QAYDA: DƏVƏT YOLUNDA BİRLİK İXTİLAF ETMƏKDƏN ÜSTÜNDÜR

**Bu qaydadakı məqsəd:** Dəvətçilərin haqq, tövhid, hidayət, saleh əməl və doğru yol üzərində birləşməsi onların ixtilaf etmələrindən, əziyyətlərinin hədər getməsi və birliklərinin itməsindən daha üstündür. Lakin bəzi batil qaydalardakı kimi batil üzərində birləşmək də qəsd olunmur.

Bu qaydanın əhəmiyyəti - Allahın iznilə - birlikdə olan gücün, izzətin, dəstəyin, səylərin və səmərəli, faydalı işin birləşməsinə qayıdır.

Bunun kimi də ittifaqın ziddi olan ixtilaf və təfriqədə səylərin zay edilməsi, bacarıqların zəifləməsi və dəvət yolunda, bu yolun müxtəlif cığırlarında qarşılaşılan problemlərə, maneələrə, provokasiyalara qarşı güclü bir dirəniş göstərilə bilməməsi var.

Uca Allah buyurmuşdur: "Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz". (Ali İmran. 103).

Həmçinin buyurmuşdur: "Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, o yollar sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə pis əməllərdən çəkinəsiniz". (Ənam. 153).

Ümmət İttifaq etmişdir ki, camaat və birlik, təfriqə və ixtilafdan daha üstündür. Gör indi dəvət meydanında bu birlik necə mühümdür?! Tahavi (Allah ona rəhmət etsin) demişdir: "Sünnəyə və camaata tabe oluruq, kənara çəkilib uzaqlaşmalardan, təfriqə və ixtilafdan çəkinirik"(1). Başqa bir yerdə isə belə deyir: "Camaat olmağı doğru-düzgün hesab edirik,

ayrılığı (təfriqəni) isə azğınlıq və əzab hesab edirik"(2).

Bu qayda haqqında müxtəsər söz belədir; dəvətçilər gərək birliyin gerçəkləşməsinin əhəmiyyətini anlasınlar və məzəmmət olunmuş ixtilafdan və ona aparan səbəblərdən çəkinsinlər.

İslam dəvətçiləri arasında birlik və ixtilaf mövzuları zamanı riayət edilməsi gərəkli olan bəzi mühüm məsələlər bunlardır:

1 – Dəvətçilər haqqında yaxşı zəndə olmaq.
2 – İxtilaf ədəbinə riayət etmək.
3 – İctihadi mövzuları münkəri (pis əməli) inkar edən kimi inkar etməmək.
4 – Hər ixtilafın əlaqələri kəsməyi və ayrılmağı gərəkdirmədiyini bilmək və buna görə müamilə etmək.
5 – Dəvətçilər arasında ixtilaf baş verdikdə onu izləmək və yaymaqdan çəkinmək.
6 – Şəxslərə təəssübkeşlikdən uzaq durmaq.
7 – Şəri yollara uyğun şəkildə ixtilafı aradan qaldırmağa çalışmaq.
8 – Müxalifə qarşı insaflı olmaq və ona qarşı zülm etməkdən çəkinmək.
9 – Dəqiqləşdirmək və danışan kimsənin dilini anlamaq və nə demək istədiyini dəqiq başa düşmək.
10 – Dəvətçini tərəfdarlarının fikirləri deyil, özünün şəriətə uyğun addımları idarə etməlidir(3).

## Qeydlər və İstinadlar:

1 – Şərhu Aqidətut-Tahaviyyə. İbn Əbil-İzz. Səh. 382.
2 – Öncəki mənbə. Səh. 512.
3 – Qadaya mənhəciyyə fid-Dəvəti iləllah. Muhəmməd Avaci. Cild 1. Bax: səhifə 311-dən 323-ə kimi.

# ON DOQQUZUNCU QAYDA: DƏVƏT ZAMANI BAŞ VERƏN İXTİLAFLARI QURAN VƏ SÜNNƏYƏ QAYTARMAQ

**Bu qaydadakı məqsəd**: İstənilən bir sahədə və ya dəvət işlərindən hər birində həqiqət və doğruluğun meyarı yalnız Qurani-Kərim və Peyğəmbərin ﷺ sünnəsidir. Bu iki meyar istənilən bir ixtilaf zamanı meyar və dəvətçilərin üzləşdiyi istənilən mübahisədə hökm verəndir. Bu iki qaynaq iki sabit vəhyin mənbəyidir, hansı ki, onlar dəvətin gücünü təşkil edir və dəvətçinin azadlığının dərinliyidir. Uca Allah buyurmuşdur: **"İxtilafa düşdüyünüz şeylər barəsində hökm vermək ancaq Allaha aiddir. Bu, mənim Rəbbim olan Allahdır. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam".** (Şura. 10).

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) bu ayənin təfsirində demişdir: "Hansı məsələdə ixtilaf edirsinizsə edin, bu, ümumi olub hər şeyə aiddir. Ayədə keçən "...barəsində hökm vermək ancaq Allaha aiddir" cümləsi isə bu mənadadır: O, həmin işlərdə Öz Kitabı və Peyğəmbərinin ﷺ Sünnəsi ilə hökm verəndir(1)".

Həmçinin uca Allah buyurmuşdur: "Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə iman gətirmisinizsə, Allaha və Peyğəmbərə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır" (Nisa. 59).

Əbdür-Rəhman əs-Sədi (Allah ona rəhmət etsin) demişdir: "Uca Allah insanların ixtilaf etdiyi dinin əsasları və ikinci dərəcəli mövzuların hamısında Allaha və Onun elçisinə qayıtmağı, yəni, Allahın kitabına və Onun elçisinin sünnəsinə qayıtmağı əmr etmişdir. Çünki bu iki qaynaqda bütün ixtilaflı məsələlərin - ya açıq-aydın, ya ümumi, ya işarə, ya tənbeh, ya anlaşılan məna, ümumi mənayla müqayisə edilən və ya buna bənzər yollarla - ayırd edilməsi var. Çünki din Allahın Kitabı və Peyğəmbərin Sünnəsi üzərində bina olunmuşdur. İman yalnız bu iki qaynaq

vasitəsilə doğru ola bilər(2)".

İbn Əbil-İzz (Allah ona rəhmət etsin) demişdir: "Əgər ümmətin mübahisə etdiyi əsas və ikinci dərəcəli məsələlərdə Allaha və Onun elçisinə qayıdılmazsa, o məsələlərdə haqq aşkara çıxmaz. Beləliklə mübahisə edən iki nəfərdən hansının doğru olduğundan əmin olunmaz (3)".

• "**İxtilaf iki qismdir:** növ ixtilafı və ziddiyyət ixtilafı.

**Növ ixtilafı;** bu cür ixtilaf ikinci dərəcəli fiqhi məsələlərdə olan ixtilafdır. Bu cür ixtilafların baş verməsi normaldır və qəbuledilən dir.

**Ziddiyyət ixtilafı;** bu növ ixtilaf isə dinin əsaslarında baş verir. Qadağan olunan ixtilaf budur, məhz bu növ ixtilaf qadağan edilmiş, məzəmmət edilmişdir. Bunun da ki, səbəbləri var. İxtilaf Quran və Sünnəyə tərəf yönəldilməlidir ki, haqq bilinsin, yol aydın olsun və doğru olan ortaya çıxsın (4)".

"Dəvətçilərin üzərinə vacib olan odur ki, müxalif olan bir kəslə ədəblə davransınlar, insanlara qarşı yaxşı zəndə olsunlar. Gərək onlar haqlı bir səbəb olmadan onları ittiham etməsinlər, dəlilləri hissələrə, məsələləri qisimlərə bölməsinlər və fikirləri qarışdırmasınlar.

Eləcə də dəvətçiyə aqibətlərə baxmaq, diqqət yetirmək, birlik üçün çalışmaq, gözəl şəkildə dəlilgətirmə, başqalarında cahillik, ikrah (sevmədən görülən iş) və təvil (yozmaq) kimi maneələrin olub-olmamasına fikir vermək və məsələləri ancaq yaxşı yerə yozmaq lazımdır(5)".

## Qeydlər və istinadlar:

1 – Təfsirul-Quranil-Azim. İbn Kəsir. səh. 1665.
2 – Teysirul-Kərimir-Rahmən. Əbdür-Rəhman ibn Sədi. səh. 184.

3 – Şərhu-Aqidətut-Tahaviyyə. İbn Əbil-İzz. səh. 513.
4 – Fiqhul-Xilaf. Doktor Avad Muhamməd əl-Qarni. səh. 11 və ondan sonrası.
5 – Məalim fi mənhəcid-Dəvət. Saleh Abdullah Humeyd. Səh. 169 və ondan sonrası.

# İYİRMİNCİ QAYDA: DƏVƏTDƏ AQİBƏTLƏRƏ (SONLUQLARA) BAXMAQ MÖTƏBƏR HESAB EDİLİR

**Bu qaydadakı məqsəd odur ki:** Bir əməlin icra edilməsindən sonra onun nə cür nəticə verməsinə, nələrə səbəb olmasına diqqət yetirilsin və həmin əmələ - o əməli edənin qəsdi olsa da, olmasa da – bu baxış bucağından qiymət (hökm) verilsin(1).

Bundan öncə şəriətin əzəmətli qaydalarından olan *"məsləhə və məfsədə"* haqqında bəhs etmişdik. Üsulçulara görə də *"aqibətlərə baxmaq"* mövzusu bir növ "məsləhə və məfsədə" qaydasına qayıdır. Fəqihlərə və üsulçulara görə bu qaydadakı məqsəd: "əməllərin (fel və davranışların) gətirib çıxardığı xeyirlərdən və ziyanlardan ibrət almaq və buna qarşı hazırlıqlı olmaqdır"(2).

O cümlədən, aqibətlərin fiqhi (anlaşılması) barədə deyilən izahlardan biri də belədir: "Şəriət əhkamlarının praktiki olaraq tətbiqi zamanı edilən felin (hərəkətin) nəyə gətirib çıxaracağını hesaba almaq, istərsə bu xeyir, istərsə də şər olsun. İstər bu işi görənin qəsdilə olsun, istər də qəsdsiz olsun"(3).

Ola bilsin ki, bu qeyd olunan mövzuda hansısa əməlin əsası şəri baxımdan icazəli olsun, lakin o əməli etmək sonu yaxşı nəticə vermədiyi üçün (məfsədəsi olduğu üçün) qadağan olunsun. Elm əhli bunu *"sədduz-zərai"* adlandırır. Ola bilsin ki, hansısa bir əməl qadağan olsun, lakin müəyyən bir durumda şəriətin məsləhəti olduğu üçün o əməli qadağan etmək işi tərk olunsun. Elm əhli bunu *"fəthuz-zərai"* adlandırır.

*Məsələn;* silah satışı əsl etibarilə icazəlidir, lakin fitnə vaxtı düşmənçiliyə yardım etməyə gətirib çıxardığı üçün onun satışı qadağan edilir (birinciyə misal).

*Başqa bir misal;* fərdi mülkiyyəti əldən almaq icazəli deyil. Lakin, əgər bunu etməkdə cəmiyyətin ümumi məsləhəti (xeyri) varsa, o zaman bu iş icazəli olur. Məscidin ərazisini genişləndirmək və ya müsəlmanlar üçün yol açmaq və s. kimi

cəmiyyətin ümumi məsləhətinə xidmət edən işləri buna misal göstərmək olar.

Müsəlman bir kimsə dəvət məqsədilə gördüyü işlərin (söz və fellərində) daim sonluğu barədə düşünməlidir. O, özünə zərər gəlməsindən öncə cəmiyyətə zərər verməkdən şiddətlə həzər etməlidir. Təəssüflər olsun ki, bəzi dəvət adına görülən işlərdə nəinki dəvətçinin özü, hətta başqa müsəlmanlar da əziyyət çəkirlər.

Qurani-Kərim də bu qaydaya riayət etməyə səsləyir: "Müşriklərin Allahdan başqa tapındıqlarını söyməyin. Yoxsa onlar da elmsiz olaraq düşməncəsinə Allahı söyərlər". (Ənam. 108). Burada müşriklərin ibadət etdikləri batil bütlərin söyülməsi daha böyük fəsadlı sonluğun –Allahın təhqir olunmasının qarşısını almaq üçün qadağan edilir.

Başqa bir ayədə isə uca Allah belə buyurmuşdur: **"Əgər Allah Öz qullarına bolluca ruzi versəydi, onlar yer üzündə həddi aşardılar. Lakin O, istədiyi şeyi qədərincə göndərir. Həqiqətən, O, Öz qullarından xəbərdardır, görəndir".** (Şura. 27). Ayədə qeyd edildiyi kimi, ruzinin çox olmasının (bolluğun) pis aqibətlərindən biri də yer üzündə həddi aşmaqdır.

• Buxari öz "Səhih"ində Aişə (رضي الله عنهما) anamızın belə dediyini rəvayət edir: "İlk nazil olan müfəssəldən bir surə idi ki, orada cənnət və cəhənnəmin xatırlanması var idi. O zaman ki, insanlar İslama tərəf gəldilər onda halal və haram haqqında ayələr nazil oldu. Əgər ilk nazil olan ayə "şərab içməyin" şəklində olsaydı, insanlar deyərdilər ki, "biz şərab içməyi heç zaman tərk etmərik! Yaxud da ilk nazil olan ayə "zina etməyin" şəklində ayə olsaydı, insanlar deyərdilər ki "biz heç zaman zinanı tərk etmərik!" (4).

• O zaman ki, Allahın Quranda xəbər verdiyi münafiq belə dedi: "Əgər biz Mədinəyə qayıtsaq, ən qüdrətlilər ən alçaqları (münafiqlər müsəlmanları) mütləq oradan çıxaracaqlar!"(Münafiqun. 8). Bu xəbər Peyğəmbərə ﷺ çatır. Ömər (رضي الله عنه) ayağa qalxıb belə deyir: "Ey Allahın elçisi, icazə

ver, bu (bunu deyən) münafiqin boynunu vurum". Peyğəmbər ﷺ buyurur: "Onunla işin olmasın! Qoy insanlar deməsinlər ki, Muhəmməd öz tərəfdarlarını öldürür!"(5). Burada Peyğəmbər ﷺ bir münafiqin qətlinin sonda İslam peyğəmbəri haqqında çirkin bir təsəvvür yarada biləcəyindən ehtiyat etdi. O, məhz bu sonluğun qarşısını almaq üçün belə cavab vermişdi. O, ölümə layiq olan birini məhz bu səbəbdən cəzalandırmağı tərk etmişdi. Elm əhli buyurur ki: "Allahın elçisi ﷺ münafiqdən xilas olmaq və müsəlmanların səflərini onlardan təmizləmək məsləhəti (xeyri) ilə müsəlmanların arasında şaiyə və təfriqə yaranması məfsədəsi (zərəri) arasında seçim etməli olduğu zaman bu sözü demişdi (6)".

Kəbənin qapısının İbrahimin (عليه السلام) zamanındakı hala salmaq istəsə də Peyğəmbərimizin bu əməli tərk etməsi müsəlmanlar arasında təşviş yaranması qorxusu və onların İslamda yeni olmaları səbəbiylə idi"(7).

Sidqi-qəlbdən kəlmeyi şəhadəti deyən hər kəsə cəhənnəmin haram olacağını deyən peyğəmbərimizə Muaz ibn Cəbəl: "Bunu insanlara xəbər verib onları sevindirməyimmi?" – dediyi zaman Peyğəmbərin: "O zaman onlar arxayınlaşarlar" (8) – deməsi də məhz insanların aqibətini düşünməsinə görə idi. Bu haqda Quran və sünnədən, səhabə və tabeinlərdən, saleh sələflərdən çoxlu nəqllər var, bu qədərilə kifayətlənmək olar.

## Qeydlər və istinadlar:


1 – Usulul-Fiqh. Əbu Zühra. Səh. 228. Nazariyyətul-Məqasid indəş-Şatibi. Səh. 381. Qaidətu Sədduz-Zərai və əsəruhə fil-Fiqhil-İsləmi. Səh. 211-212.

2 – Qadaya mənhəciyyə fid-Dəvəti iləllah. Dr. Muhəmməd əl-Avaci. 1/228.

3 – Aslu İtibər Mə`ələt beynən-Nazariyyə vət-Tətbiq. Ömər Ciddiyyə. Səh. 28.

4 – Səhih əl-Buxari. "Fədailul-Quran" kitabı. 2/228. No: 4993.

5 – Səhih əl-Buxari. "Qurani-Kərimin təfsiri" kitabı. No: 4905.

6 – Məcmuul-Fətəva. İbn Teymiyyə. 28/131.

7 – Fəthul-Bari. İbn Həcər. 1/225.

8 – Səhih əl-Buxari. "Elm" kitabı. 128. Səhih Müslim. "İman" kitabı. 32.

# SON SÖZ

Hər bir elmin mühüm qaydaları olduğu kimi İslama dəvət elminin də mühüm qaydaları var. Bu qaydaların digər İslami elmlərlə də sıx bağlılığı və əlaqəsi var. Xüsusən də dinin məqsədləri, üsulul fiqh, əqidə, hədis, fiqh və s. elmlərin İslama dəvət elminə və onun qaydalarına böyük təsiri var.

Həqiqətən də haqqında danışdığımız qaydalar İslama dəvət mövzuları içərisində ən mühümlərindəndir. Bu haqda yazan müəlliflərin əsərlərində bu qaydaların sayında müxtəliflik görmək mümkündür. Onlardan bəzisi öz əsərində on iki(1), bəzisi on dörd(2), bəzisi on beş(3), bəzisi iyirmi yeddi(4), bəzisi hətta əlli beş(5) qayda gətirir. Bəziləri bu qaydaları İslama dəvət edənlər üçün metodiki qaydalara bölür, bəziləri bu qaydaları İslama dəvət olunanlar aspektindən tərtib edir, bəziləri dəvət elmində dəvətçinin dəvət öhdəliklərinə aid xüsusi qaydalar tərtib edir, bəziləri isə dəvətin fiqhinə, yəni incəliklərini bilməyə aid xüsusi qaydaları şəriət dəlillərinə görə əsaslandırır. Demək olar ki, öz əsərlərində bu qaydaları qeyd edən hər bir müəllifin gətirdiyi qaydalar Qurana və mötəbər hədislərə əsaslanır. Diqqətlə araşdırdığımız zaman bəzi müəlliflərin dəvət üslubu və vasitəsi arasında fərq qoymadan dəvətə aid hər bir mövzunu dəvət qaydası kimi gətirməsini də müşahidə etmək olar. Lakin İslama dəvət elmi üzrə mütəxəssislərin çoxsaylı kitablarda qeyd etdiyi məşhur qaydalar adətən iyirmi qaydadan o yana keçmir. Maraqlısı budur ki, bu araşdırma zamanı dəvət haqqında qayda kimi təsəvvür etdiyimiz bəzi ibarələri yalnız hansısa başqa qaydanın izahı daxilində görmək mümkündür. Məsələn, hər iki tərəfin mötəbər dəlilləri olduğu halda mötəbər ixtilaf olan ictihadi məsələlərdə bir tərəfin qarşı tərəfin əməlini və ya rəyini hansısa pis əməli inkar edirmiş kimi inkar etməsinin icazəli olmamasını bir alim xüsusi dəvət qaydası hesab edə bilər. Eləcə də başqa bir alim şəriət mövzularından bəhs edərkən bunu "ictihadi məsələlərdə inkar edilmir" şəklində ifadə edə bilər. Lakin bu mövzunun "İslam dəvətçiləri arasında birlik və ixtilaf mövzuları zamanı riayət

edilməsi gərəkli olan bəzi mühüm məsələlər" arasında sadəcə bir təfsilat olaraq qeyd olunduğunu gördükdə (6) mövzuya nə qədər dəqiq elmi baxış gərəkdiyi aydın olur. Bu mövzunun ciddiliyini anlayan kimsəyə dəvət qaydaları mövzusunda nə qədər diqqətli olmaq gərəkdiyi təcəlli edir.

Bu kitabçada qeyd olunmasa da dəvət sahəsində deyilmiş bəzi qaydaları da zikr edə bilərik. O qaydalar ki, barəsində ola bilsin ki, əksər elmi kitablarda çox danışılmasa da bəzi mənbələr zaman-zaman bu mövzuların əhəmiyyətinə toxunurlar, bu qaydalardan:

1 – İslam dəvəti beynəlxalq dəvətdir, irqçilik etmək qadağandır(7).

2 – İctihadi məsələlər münkərin inkar edildiyi kimi inkar edilmir(8).

3 – Dəvətçi kimsə insanların arasında olmalıdır(9).

4 – Dəvətçinin səmərə əldə etdiyi bir sahə ilə məşğul olması səmərə əldə etməyə ümid edilməyən bir sahə ilə məşğul olmasından üstündür (10).

5 – Dəvət öhdəliyi şəxsin gücü çatdığı qədərdir.

6 – Kim xeyrə dəvət edərsə, ona tabe olanların əcri qədər savab qazanar.

7 – İnsanın hər bildiyini danışması elmdən deyil.

8 – Səbir və yəqinliklə dində imamlıq əldə olunar.

9 – Öz nəfsində xeyir olmayanın başqasına da xeyri dəyməz.

10 – Dəvət fürsətlərini dəyərləndirmək müvəffəqiyyətdən sayılır(11).

Sonda uca Allahdan diləyirəm ki, bu kitabçanı mənə və oxuculara faydalı etsin! Allahın salavatı və salamı peyğəmbərimiz Muhəmmədə, onun əhli beyti və sahabələri üzərinə olsun!

## Qeydlər və istinadlar

1 – Dirasət Mənhəciyyə fid-Dəvət vəl-Hisbə. Ustaz Dr. Əbdür-Rəhim əl-Muğazzəvi.

2 – Qavaid Mənhəciyyə fid-Dəvəti iləllah. Ustaz Dr. Fəlih əs-Suğeyr.

3 – Qavaidud-Dəvət iləllahi təala əl-Mutəalliqa bid-Dəiyəh. Dr. Əbdür-Rəhman əl-Harisi.

4 – İlmud-Dəvət iləllahi təala dirasə ta`siliyyə. Dr. Muhəmməd əş-Şəhrani.

5 – Qavaidud-Dəvət – 55 qaidə fid-Dəvət. Valid Sueydan. (Qeyd: Bu müəllif üsulçu olduğu üçün kitabında çoxlu qaydalar gətirib, hansı ki, bu qaydaların əksəriyyəti dəvət elmində xüsusi qayda kimi tanınmır).

6 – Qadaya mənhəciyyə fid-Dəvəti iləllah. Muhəmməd Avaci.

7 – İlmud-Dəvəti iləllah dirasə ta`siliyyə. Dr. Muhəmməd əş-Şəhrani.

8 – Bu haqda yuxarıdakı cümlələrdə bəhs edildi.

9 – Bu ifadə bir qayda kimi ölkəmizdəki dindarlar arasında da səslənir. Çox insanlar bu qaydanın şəriətdəki dəlilini bilməsələr də, bunun praktikadan təsdiqlənmiş bir qayda olduğunu hesab edirlər. Bu qənaət təcrübədən olsa da doğrudur və həqiqətən də şəriət dəlillərinə əsaslanır.

10 – İlmud-Dəvəti iləllah dirasə ta`siliyyə. Dr. Muhəmməd əş-Şəhrani.

11 – Qavaidud-Dəvət iləllahi təala əl-Mutəalliqa bid-Dəiyəh. Dr. Əbdür-Rəhman əl-Harisi.

QEYDLƏR

# QEYDLƏR

# QEYDLƏR

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1 – Səhih əl-Buxari. Muhəmməd ibn İsməyıl əl-Buxari.
2 – Səhih Müslim. Müslim ibnil-Həccac ən-Nisaburi.
3 – Fəthul-Bari fi Şərhi Sahih əl-Buxari. İbn Həcər əl-Asqalani.
4 – Qavaid Mənhəciyyə fid-Dəvəti iləllah. Fəlih əs-Suğeyyir.
5– Səhih ən-Nəsai. Muhəmməd Nasirəddin əl-Albani.
6 – Sünən ən-Nəsai. Əbu Əbdür-Rəhman Əhməd ibn Şüeyb.
7 – Mucəm əl-Kəbir. Suleyman ibn Əhməd ət-Təbərani.
8 – əl-Uddə fi Usulil-Fiqh. Muhəmməd ibnil-Hüseyn Əbu Yəla.
9 – əl-Mucizu fid-Dəvəti iləllahi təala. Ustaz Dr. Hamid Huceyli.
10– əl-Məxrəcu minəl-Fitnə. Şeyx Muqbil ibn Hədi.
11 – əl-Hucəc əl-Qaviyyə alə ənnə Vasəiləd-Dəvət Tovqifiyyə. Abdus-Sələm ibn Bərcis.
12 – Fətəva Nurun Aləd-Dərb. Muhəmməd Saleh əl-Useymin.
13 – Dirasət Mənhəciyyə fid-Dəvət vəl-Hisbə. Prof. Əbdür-Rəhim əl-Müğəzzəvi.
14 – əl-İstiqamə. İbn Teymiyyə. Muhəmməd Səlimin təhqiqi ilə.
15 – Məcmuul-Fətəva. Şeyxulislam ibn Teymiyyə. İbn Qasimin tərtibatı ilə.
16 – İləmul-Muvaqqiin an Rabbil-aləmin. İbn Qeyyim.
17 – Haqiqatu Əmri bil-Məruf vən-Nəhyi anil-Munkər və Ərkənuhu və Məcəllətuhu. Muhəmməd Nasir Əbdürrəhman.
18 – Dirasət fid-Dəvət vəl-Hisbə. Prof. Əbdür-Rəhim əl-Müğəzzəvi.
19 – Movsuatul-Aqidə. Suud ibn Salman Əli Suudun elmi rəhbərliyi ilə bir sıra araşdırmaçıların ərsəyə gətirdiyi əqidə üzrə terminlər ensiklopediyası.
20 – Dirasət mənhəciyyə fid-Dəvət vəl-Hisbə. Prof. Əbdür-Rəhim əl-Müğəzzəvi.
21 – Mənhəcud-Dəvət iləllah Alə Dov`i Vasiyyətin-Nəbi ﷺ li-Məb`usihi iləl-Yəmən Muaz ibn Cəbəl رضي الله عنه Prof. Əbdür-Rəhim əl-Müğəzzəvi.
22 – Səhih əl-Cami. Muhəmməd Nasiruddin əl-Albani.
23 – əl-Muvafaqat əsəri. İbrahim ibn Musa əş-Şatibi.

24 – Teysirul-Kərimur-Rahmən. Əbdürrəhman əs-Sədi.
25 – əl-Mustasfə. Əbu Hamid əl-Ğazəli ət-Tusi.
26 – əl-Fikrul Məqasidi lil-İzz ibn Əbdüssələm min kitəbihi.
27 – Qavaidul-Əhkəm fi Məsalihil-Ənəm. İzzuddin ibn ibn Əbdüssəlam.
28 – Fusul fis-Səqafəti val-Ədəb. Ali Tantavi.
29 - əl-Mədxəl əl-Fiqhi əl-Am. Mustafa Zərqa.
30 – Təfsirul-Quranil-Azim. Əbül-Fida İsmayıl İbn Kəsir.
31 – Şərhu Qavaid əl-Fiqhiyyə. Mustafa Zərqa.
32 – ət-Təfsir əl-Müyəssər. Bəzi alimlərin topladığı müxtəsər təfsir.
33 - İlmud-Dəvət iləllah. Muhəmməd əş-Şəhrani.
34 – Vasəilud-Dəvət. Əbdür-Rəhim əl-Muğazzəvi.
35 – Rovdatun-Nazir. Muvaffaquddin ibn Qudamə.
36 – əl-İhkəm fi Usulil-Əhkəm. Əli ibn Muhəmməd əl-Əmədi.
37 – Şərhu Aqidətut-Tahaviyyə. Əli ibn Əli ibn Muhəmməd İbn Əbil-İzz.
38 – Qadaya mənhəciyyə fid-Dəvəti iləllah. Muhəmməd Avaci.
39 – Fiqhul-Xilaf. Dr. Avad Muhamməd əl-Qarni.
40 – Məalim fi Mənhəcid-Dəvət. Saleh Abdullah Humeyd.
41 – Usulul-Fiqh. Muhəmməd ibn Əhməd Əbu Zühra.
42 – Nazariyyətul-Məqasid indəş-Şatibi. Dr. Reysuni.
43 – Qaidətu Sədduz-Zərai və əsəruhə fil-Fiqhil-İsləmi. Məhmud Həmid Osman.
44 – Aslu İtibər Mə`ələt beynən-Nazariyyə vət-Tətbiq. Ömər Ciddiyyə.
45 – Qavaidud-Dəvət iləllahi təala əl-Mutəalliqa bid-Dəiyəh. Dr. Əbdür-Rəhman əl-Harisi.
46 – Qavaidud-Dəvət – 55 qaidə fid-Dəvət. Valid Sueydan.

# KİTABIN İÇİNDƏKİLƏR

**Birinci qayda:** İxlas.....................................................................4
**İkinci qayda:** Rəy və hədəfin aydın olması.................................6
**Üçüncü qayda:** Dəvət qaydaları şəriətə uyğun olmalıdır.............8
**Dördüncü qayda:** Elm, ibadət və əməl arasındakı tarazlığı qorumaq.....................................................................10
**Beşinci qayda:** Dəvət olunan kəslərin halını bilmək..................12
**Altıncı qayda:** Zərəri dəf etməyi xeyri cəlb etməkdən önə çəkmək.......................................................................14
**Yeddinci qayda:** Dəvətə daha mühüm olan mövzu ilə başlamaq....................................................................18
**Səkkizinci qayda:** Dini tədricən öyrətmək və nəticəni görməyə tələsməmək.................................................................20
**Doqquzuncu qayda:** Dəvətin ümumi məsləhəti xüsusi məsləhətindən önə çəkilməlidir................................................22
**Onuncu qayda:** Dəvət hislər və emosionallıq üzərində deyil, elm və bəsirət üzərində qurulmalıdır.................................................23
**On birinci qayda:** Tərğib və tərhib arasında tarazlığı qorumaq.....................................................................26
**On ikinci qayda:** Şəriətin məqsədinə müxalif olan hər bir dəvət məqsədi batildir.....................................................................29
**On üçüncü qayda:** Özüylə fəsad gətirən və ya xeyri aradan qaldıran hər bir dəvət yolu qadağandır......................................31
**On dördüncü qayda:** Tam (ümumi) hissəni itirməkdənsə, bəzi hissələri qorumaq üstündür.................................................33
**On beşinci qayda:** Dəvət zərurəti ehtiyac miqdarında istifadə edilir.........................................................................36
**On altıncı qayda:** Dəvətdə məşəqqət asanlaşdırmanı lazımlı edir...........................................................................39
**On yeddinci qayda:** Dəvət məqamı fətva məqamı kimi deyil....43
**On səkkizinci qayda:** Dəvət yolunda birlik ixtilaf etməkdən üstündür......................................................................46
**On doqquzuncu qayda:** Dəvətdə ixtilaf Quran və sünnəyə qaytarılmalıdır..........................................................48

**İyirminci qayda**: Dəvətdə aqibətlərə (sonluqlara) baxmaq mötəbər hesab edilir.....................................................................51
**Son Söz**...........................................................................................55
Qeydlər..............................................................................................58
**İstifadə edilmiş ədəbiyyat**...........................................................61
Kitabın içindəkilər...........................................................................63

**Qeyd:** Möhtərəm oxucu! Şəkk yoxdur ki, oxuduğunuz bu kitabça insan əməyinin bəhrəsidir. Ona görə də kitabçada səhvlərin olması qaçılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:
Sahibfarmanoglu@gmail.com

**Kitabın adı:** "İslam dəvəti haqqında mühüm qaydalar".
**Redaktədən sonrakı tarix:** 02.02.2026.
**Kitabın səhifələrinin sayı:** 56.
**Kağız ölçüsü:** A4 (29.7 × 21).
**Müəllif:** Sahib Fərman oğlu Əsədov.
**Baş redaktor:** Malik Əlisoy.
**Digər redaktorlar:** Telmar Namazov, Əli Nadiroğlu.

Möhtərəm müsəlmanlar! Oxuduğunuz bu kitabça İslam dəvətinə aid bəzi mühüm qaydaları ehtiva edir. Bu qaydalar əslində yeni qaydalar deyil, islamşünasların bir çoxu bu qaydalarla tanışdırlar. Bu qaydalar dinimizin mübarək mənbələrində əsrlərdir ki, mövcuddur və din xadimlərinin tətbiqatından keçmişdir.

Qaydaların seçilməsi və kitabçada toplanması zamanı əsli Quran və peyğəmbərin ﷺ sünnəsinə zidd olan batil qaydaları, İslamın ümumi ali məqsədlərinə deyil, camaat, təriqət və qruplaşmaların şəxsi mənafeyinə xidmət edən batil qaydaları tərk etməyə xüsusi diqqət göstərilmişdir!

Ümid edirəm ki, bu qaydalarla tanışlıq İslam dəvətinə yeni başlamış bir çoxları üçün də bir həvəsləndirici amil və yol göstərən qaynaq və bir bələdçi olacaqdır. Uca Allahdan istəyirəm ki, bu risaləni faydalı və bərəkətli etsin!

*Sahib Əsədov*

قواعد الدعوة